

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

02 iyul 2026-cı il, cümə axşamı
№ 113 (7180)
Qiyməti 60 qəpik


## Azərbaycan xalqından mütləq etimad!!!



Bax səh. 2

## Prezident İlham Əliyevin Liderliyi regionda sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır



Bax səh. 2

## Yol xəritəsinin prioritetləri: innovasiya, kibertəhlükəsizlik və rəqəmsallaşma

Bax səh. 3

## Dayanıqlı məskunlaşmanın yeni mərhələsi

Bax səh. 5

## Yelisey Sarayı növbəti qalmaqalla üz-üzə

Bax səh. 6

## İtkin düşmüş şəxslərin taleyi...

Bax səh. 5



Bax səh. 3

## Heydər Əliyev Fondunun vitse-prezidenti Şəkidə...

## Azad Şuşadan İslam və Türk dünyalarına çağırışlar

Bax səh. 4

## Türkiyə NATO üzvləri arasında birliyi gücləndirməyə çalışır

Bax səh. 7

## Danışıqlar Minskdə aparıla bilərmi?

Bax səh. 7

## Azərbaycan üçün etibarlı tərəfdaş

Bax səh. 4




## Avropada strateji təhlükəsizliyin yeni mərhələsi

Bax səh. 6



# Azərbaycan xalqından mütləq etimad!!!

## Sorğunun nəticələri: Prezident İlham Əliyevin fəaliyyəti yüksək dəyərləndirilir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi 2026-cı ilin birinci yarısında Prezident İlham Əliyevin fəaliyyətinə ölkə vətəndaşlarının münasibətini öyrənmək, bu sahədə dinamika və tendensiyaları təhlil etmək məqsədilə ictimai rəy sorğusu keçirib. Sorğunun nəticələri Prezident İlham Əliyevin siyasi liderliyinə və strateji fəaliyyətinə ictimai dəstəyin yüksək səviyyədə olduğunu göstərib. Sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi ümumilikdə 87.7 faiz təşkil edir. Bu göstərici ölkədə hər 10 nəfərdən təxminən 9-nun Prezident İlham Əliyevə etimad etdiyini təsdiq edir.

Rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 93.6 faizi Prezidentin fəaliyyətini müsbət qiymətləndirir. Etimad və dəstəyin yüksək olduğunu təsdiq edən ən güclü indikatorlardan biri vətəndaşların seçki davranışlarıdır. Belə ki, Prezident seçkiləri növbəti bazar günü keçirilsə, rəyi soruşulanların böyük əksəriyyəti - 91,5 faizi seçkilərdə Prezident İlham Əliyevə səs verərdi.

Sorğu nəticələrinin təhlili Prezidentə olan yüksək inam və etimadın dövlət başçısının reputasiyası ilə bərabər, həm də dövlətin daxili sabitliyinin qorunması fonunda formalaşdığını göstərir. Bu mənada, Prezident ictimai rəydə ümummilli maraqlar çərçivəsində birləşdirici, sabitlik baxımından isə alternativsiz hesab edilir - respondentlərin 81.9 faizi Prezident İlham Əliyevi alternativsiz siyasi lider kimi qəbul edir. Bu yanaşma sorğuda iştirak edən bütün sosial-demoqrafik qruplar üzrə müşahidə olunur və ötən dövrlərlə müqayisədə bu göstəricidə artım dinamikası qeydə alınıb.

Qeyd edək ki, ictimai rəy sorğusu 20 may - 30 may 2026-cı il tarixlərində üzbəüz müsahibə üsulu ilə keçirilib. Sorğuda yaşı 18 və yuxarı olan 1210 respondent iştirak edib. Respondentlərin cins, yaş qrupları, təhsil səviyyəsi və iqtisadi rayonlar üzrə bölgüsü rəsmi statistik göstəricilərə proporsional şəkildə müəyyənləşdirilib, əhali üzrə reprezentativlik təmin edilib.

# Prezident İlham Əliyevin Liderliyi regionda sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır

## Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşüb





İyulun 1-də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə təkbətək və geniş tərkibdə görüşü olub. Daha sonra Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlərin çox mühüm mərhələsindəyik: "Bu ilin martında biz Avropa İttifaqı Şurasının Prezidenti cənab Koştanı, sonra may ayında isə Avropa diplomatiyasının rəhbəri xanım Kallası qəbul etdik. Bu gün isə Avropa Komissiyasının Prezidenti bizimlədir. Beləliklə, deyərdim ki, əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur. Biz Avropa Komissiyası ilə münasibətləri yüksək dəyərləndiririk. Bu gün xanım Prezident və nümayəndə heyətləri ilə birgə çox böyük təəssürat bağışlayan gündəliyi geniş şəkildə müzakirə etdik".

Dövlət başçısı qeyd edib ki, Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ticarətimizin 40 faizdən çoxu üzv dövlətlərlə aparılır və Azərbaycan Avropa İttifaqı üçün Cənubi Qafqazda əsas ticarət tərəfdaşıdır. Cənubi Qafqazda ticarətin təxminən 70 faizi Azərbaycanla aparılır: "Əlbəttə ki, biz enerji sahəsində əməkdaşlığımızı geniş müzakirə etdik və həmçinin xanım Prezidentin Azərbaycana dörd il əvvəlki səfəri də olduqca əhəmiyyətli idi. Bu baxımdan biz enerji sahəsində Strateji Tərəfdaşlıq Haqqında Anlaşma Memorandumunu imzaladıq və həmin vaxtdan etibarən Avropa İttifaqının üzv dövlətlərinə Azərbaycanın təbii qaz ixracı təxminən 65 faiz artmışdır. Bu gün qaz ixracımızın yarısı Avropa İttifaqının üzv dövlətlərinə gedir və bütövlükdə, Avropa İttifaqının 10 üzvü Azərbaycan qazını alır, bu coğrafiyanı genişləndirmək potensialı da mövcuddur. Bu gün hər ölkə üçün enerji təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm amilidir. Azərbaycan böyük dərəcədə siyasi səylər qoymuş, diplomatik fəaliyyət aparmış və həmçinin neftimizin, qazımızın nəqli üçün infrastrukturun qurulmasına maliyyə sərmayələri yatırmışdır. Cənub Qaz Dəhlizi ümumi fəaliyyətimizin gözəl nümunəsidir. Bu gün 3500 kilometrlik vahid boru kəməri sistemləri təbii qazın Azərbaycandan Avropaya nəqlində əsas arteriya hesab edilir".



Prezident İlham Əliyev deyib ki, bağlantı birmənalı olaraq müzakirələrimizin mühüm hissələrindən biridir. Azərbaycan regional daşımalar layihələrinin bir çox hallarda fəal iştirakçısı və təşəbbüskarıdır. Şərq-Qərb və Şimal-Cənub daşımalar dəhlizləri Azərbaycandan keçir və qonşularımızla, həmçinin qonşularımızın qonşuları ilə yaxşı münasibətləri bizə bütün iştirakçılara fayda gətirən çox geniş əməkdaşlıq formatını qurmağa imkan yaratdı. Bu gün Azərbaycandan keçən yüklərin həcmi bütün istiqamətlərdə artır. Biz Azərbaycanda və qonşuluqda daşımalar infrastrukturuna böyük sərmayələr yatırdıq və bunu davam etdiririk. "Yeni geosiyasi vəziyyətə gəldikdə isə görürük ki, ticarət üçün dəniz limanlarımızın, dəmir yolu infrastrukturunun imkanlarının genişləndirilməsinə ehtiyac duyulur. Bütün bunları biz cədvələ və öz maliyyə imkanlarımıza uyğun edirik. Avropa Komissiyası ilə münasibətlərimizin kifayət dərəcədə yeni hissəsi bərpaolunan enerji ilə bağlıdır. Biz xanım Prezidentlə, həmçinin Azərbaycanın Günəş, külək və su elektrik enerji potensialını, o cümlədən artıq mövcud ötürmə xətlərini və tikiləcək yeni xətləri geniş şəkildə müzakirə etdik. Bu baxımdan biz, həmçinin strateji tərəfdaş ola bilərik. Mən xanım Prezidentə məlumat verdim ki, indiyədək xarici və yerli şirkətlərlə imzalanmış müqavilələr bizə növbəti beş və ya altı il ərzində səkkiz gigavat Günəş və külək enerjisini əldə etmək imkanı verəcək. Bunlar yalnız imzalanan müqavilələrə aiddir və öz növbəsində, müqavilə öhdəliyi deməkdir. Lakin birmənalı olaraq, daha çox həcmlər olacaq," - deyən Prezident vurğulayıb ki, regional təhlükəsizlik məsələlərini, xüsusən də uğurla gedən Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesini geniş şəkildə müzakirə etdik. Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı ilə Ermənistan və Azərbaycan Birgə Bəyannaməni imzaladılar. Prezident Tramp, həmçinin şahid kimi imzaladı və əlavə olaraq Ermənistan ilə Azərbaycan sülh sazişinin mətnini parafladılar. Beləliklə, de-fakto sülh qurulub və biz faydasını görürük: "Sülhü təkcə kağız üzərində deyil, gündəlik həyatda hiss etdiyimizi nümayiş etdirmək üçün bir çox birtərəfli addımlar atdıq. Azərbaycan öz ərazisi ilə Ermənistana daşınan yüklərin tranzitinə bütün məhdudiyyətləri aradan qaldırıb. Həmin məhdudiyyətlər beynəlxalq səviyyədə tanınmış ərazilərimizin Ermənistan tərəfindən işğalı səbəbindən tətbiq edilmişdi. Biz, həmçinin çox mühüm yanacağı, xüsusən də benzin və dizeli Ermənistana təchiz etməyə başlamışıq. Bu günün geosiyasi vəziyyətinə gəldikdə, onun əhəmiyyəti heç zaman olmadığı qədər daha da artır. Beləliklə, biz göstəririk ki, sülh bizim üçün artıq hiss olunan məfhumdur, onu hiss edə bilirik və sülh şəraitində yaşamağı öyrənirik. Torpaqlarımız 30 il ərzində işğal altında qalmışdı. Biz suverenliyimizi, ərazi bütövlüyümüzü güc və siyasi vasitələrlə bərpa etdik. Biz Ermənistana sülh təklif etmişik. Bir sözlə, sülh artıq reallıqdır. Lakin biz onu gücləndirmək, uzunmüddətli və əbədi etmək üçün ürəkdən çalışmalıyıq. Əlbəttə, biz Avropa Komissiyasının dəstəyini çox yüksək dəyərləndiririk. Xanım Prezident, həmçinin mənə məlumat verdi ki, Avropa Komissiyası çox kömək edə bilər və bunu arzulayır. Bu baxımdan biz hər hansı köməyi, hər hansı yardımı yüksək dəyərləndirərdik. Düşünürəm ki, bütün bunlar regiondakı dinamikanı gücləndirərək Cənubi Qafqazı hər hansı ərazi iddialarından, hər hansı münaqişədən azad, tərəfdaşlıq, əməkdaşlıq və sülh regionuna çevirəcək".



## Ursula Fon der Lyayen: Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz.

Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen bildirib ki, bu gün gördüyümüz Azərbaycanın gələcəyə yönəlmiş planlarının təzahürüdür. Ursula Fon der Lyayen qeyd edib ki, bu gün Avropa İttifaqı üçün olduqca əhəmiyyətli tərəfdaşlığı dərinləşdirmək məqsədilə buradadır: "Bu tərəfdaşlıq Prezidentin indicə təsvir etdiyi kimi real təkana malikdir. Lakin ilk növbədə, icazə verin, bu regionda bir neçə onilliklər baxımından baş vermiş ən mühüm hadisəyə istinad edim. Sülh. İcazə verin, Ermənistanla tarixi sülh müqaviləsini başlatmağınız münasibətilə Sizi təbrik edim. Siz regionda sülhün və əməkdaşlığın təşviq olunmasında şəxsi liderlik keyfiyyətlərini nümayiş etdirdiniz. Bu, sabitlik, etimad və ortaq rifah üçün yeni imkanlar yaradır. Avropa İttifaqı bu prosesi qəti şəkildə dəstəkləyir. Biz bunu davam etdirəcəyik. Biz kağız üzərində sülhü birlikdə real sülhə çevirə bilərik. Məhz buna görə biz bu gün burada birlikdə çalışırıq. Bu məni bu gün açıqlayacağım ilk xəbərə gətirib çıxarır. Biz bağlantı vasitəsilə sülhü gücləndirmək istəyirik. Biz "Qlobal Qapılar" Sərmayə Proqramımız vasitəsilə Cənubi Qafqazda nəqliyyata, enerjiyə və rəqəmsal keçidlərə 200 milyon avroya qədər qrant şəklində sərmayə yatıracağıq. Bunun dövlət və özəl sərmayələr formasında 2 milyard avroya qədər vəsaitləri cəlb etmək potensialı var. Layihələrə Naxçıvandan keçən dəmir yolu bağlantısı və ya Bakı limanının inkişaf etdirilməsi daxil ola bilər".



Avropa Komissiyasının Prezidenti qeyd edib ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir. Onun strateji əhəmiyyəti artmaqda davam edir. Azərbaycan burada əsas rol oynaya bilər. "Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik. Bu, nəqliyyat, enerji və rəqəmsal bağlantını əhatə etməklə Yüksəksəviyyəli Bağlantı Dialoqu ilə sıx bağlıdır. Həmçinin yaxşı olardı ki, burada - Bakıda Regional Bağlantı Sərmayə Konfransının təşkil edilməsi üzərində də işləyək. Beləliklə Avropanı, Cənubi Qafqazı və Mərkəzi Asiyanı bir araya gətirəcəyik," - deyən Ursula Fon der Lyayen qeyd edib ki, açıqladığım ikinci yeni xəbər 20 milyon avro dəyərində olan sülhün inkişafı proqramı ilə bağlıdır. Biz sülhün regionda bərqərar olmasına, sülhün verdiyi faydaların insanların, sərhəd regionlarında yaşayanların gündəlik həyatlarında görünməsinə birlikdə kömək etmək istəyirik: "Biz, məsələn, təcili yardım maşınlarının təchiz olunması ilə daha yaxşı səhiyyəyə sərmayə yatıracağıq. Biz, həmçinin minatəmizləmə vasitəsilə təhlükəsizliyə diqqət yetirəcəyik. Biz kənd yerlərinin inkişafı, suyun təchizatı, bu günün dili ilə desək, dəqiq əkinçilik və bu kimi sahələr vasitəsilə daha güclü yerli icmaların inkişafına sərmayə yatıracağıq və əlbəttə ki, kiçik və orta müəssisələrə dəstək göstərəcəyik".







Daha sonra Avropa Komissiyasının Prezidenti bildirib ki, enerji tərəfdaşlığımızın ən güclü pillələrindən biri kimi qalmağa davam edir. Son illərdə Azərbaycan Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşı olduğunu sübuta yetirib: "Biz Rusiyanın enerjini silah kimi istifadə etdiyi və qazı kəsdiyi zaman Azərbaycanın irəliyə çıxdığını unutmamışıq. Cənub Qaz Dəhlizi həqiqətən Avropanın enerji təhlükəsizliyini gücləndirib və bu, heyrətamiz uğur hekayəsidir. Mən buna görə Sizə təşəkkürümü ifadə etmək istəyirəm. İndi biz növbəti səhifəni hazırlayırıq. Azərbaycan gələcəyin enerjisinə sərmayə yatırır. Xəzər dənizində külək enerjisini istehsal etmək kimi planlarınız var. Sizin təmiz elektrik enerjisi qovşağına çevrilmək üçün həm planınız, həm potensialınız var. Bu da Avropa İttifaqının özünün təmiz enerjiyə keçid prosesi ilə tamamilə uzlaşır. Beləliklə biz bərpaolunan enerji mənbələri, elektrik enerjisinin qarşılıqlı nəqli və regional enerji şəbəkələri kimi sahələrdə əməkdaşlığımızı dərinləşdirmək üçün nəhəng potensialı görürük. Azərbaycanı Avropa İttifaqı ilə birləşdirən "Yaşıl Enerji Dəhlizi"ni qurmaq üçün planlarınızı alqışlayırıq. Bərpaolunan enerji mənbələrinin daha çox istehsalı ixrac üçün daha artıq qaza qənaət edə və qonşularla bölüşərək regional enerji təhlükəsizliyini gücləndirə bilər. Biz Sizin Ermənistana gedən elektrik enerjisi kabeli ilə bağlı təklifinizi çox alqışlayırıq. Bu, çox maraqlı məqamdır. Beləliklə mənim təsvir etdiklərim əsasən odur ki, bərpaolunan enerji mənbələri iqtisadiyyatlarımızın gələcəyini irəli aparır. Burada - Cənubi Qafqazda bu proseslər, həmçinin sülhün irəli aparılmasına kömək edə bilər".

Ursula Fon der Lyayen qeyd edib ki, biz iqtisadi tərəfdaşlığımızın dərinləşdirilməsi yollarını müzakirə etdik. Avropa İttifaqı artıq Azərbaycanın ən böyük ticarət tərəfdaşı və ən iri sərmayədarıdır. Hazırda bu işi davam etdirmək istəyirik: "Yeni hərtərəfli saziş üzərində müzakirələrin yenidən başlanması vacib bir addımdır. Bu, Azərbaycan ilə Avropa İttifaqı arasında hətta daha çox ticarətin aparılması üçün imkanlara yol aça bilər və biz bu məsələdə tərəqqiyə nail olmaq üçün birlikdə çalışacağıq.

Prezident Əliyev, Avropa İttifaqı bu regionun parlaq gələcəyinə inanır. Beləliklə gəlin, dinc Cənubi Qafqaz naminə, Avropaya, Xəzər regionuna və Mərkəzi Asiyaya bağlantısı olan Cənubi Qafqaz naminə, aramızdakı həmişəkindən daha güclü tərəfdaşlıq naminə birlikdə çalışaq".

# Azərbaycanın yeni inkişaf strategiyası

## Yol xəritəsinin prioritetləri: innovasiya, kibertəhlükəsizlik və rəqəmsallaşma

Hər dövrdə ölkələr qarşısında yeni çağırışlar meydana çıxır. Hazırda dünya keyfiyyətcə yeni, sayca dördüncü sənaye inqilabı dövründən keçir. İnkişafın bu mərhələsində qlobal məkanı kiçik kəndə çevirib bir ovuc içində birləşdirən informasiya-kommunikasiya texnologiyaları (İKT) həyatımızın ayrılmaz, çox vacib hissəsinə çevrilib. Eyni zamanda, bu gün iqtisadi və institusional inkişafı, xidmət sektorunu, təhsili, ölkələrin müdafiə sistemlərini, ümumiyyətlə bütün sahələri rəqəmsal texnologiyalarsız təsəvvür etmək belə mümkün deyil. Proses getdikcə daha dönməz xarakter alır və yeni qlobal trendlər yaranır. Texnologiyalar artıq yalnız yardımçı alət deyil, iqtisadi artımın əsas təkanverici qüvvəsi və milli təhlükəsizliyin təməl elementi qismində çıxış edir.

Yeni sənaye inqilabına transformasiya bütün ölkələr kimi Azərbaycanın da qarşısında yeni çağırışlar yaradır. Bu günlərdə Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclasında səsləndirlən mühüm fikirlər ümumilikdə dövlətin bu sahəyə verdiyi böyük önəmin göstəricisidir. Mehriban xanım Əliyevanın bildirdiyi kimi, qarşıdakı üç il üçün rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin inkişafını təmin edən konkret Yol xəritəsi müəyyən olunmuşdur. Şuranın əsas vəzifəsi müxtəlif dövlət qurumlarının fəaliyyətini əlaqələndirməkdən, vahid yanaşma formalaşdırmaqdan və qəbul edilən qərarların vaxtında və səmərəli həyata keçirilməsinin icra olunmasını təmin etməkdən ibarətdir.



**Möhkəm hüquqi bazanın təmin edilməsi**

Hər bir sahədə uğurlu nəticələrin əldə olunması üçün zəruri hüquqi bazanın yaradılması vacib şərtdir. Respublikamızda həmçinin rəqəmsallaşma sahəsində son illərdə bir sıra normativ hüquqi aktlar qəbul edilib. Belə ki, Azərbaycan Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda innovasiyaların təşviqi, müasir texnoloji həllərin tətbiqinin genişləndirilməsi, müasir texnologiyaların iqtisadiyyat, səhiyyə, kənd təsərrüfatı və bir çox digər sahələrdə tətbiqi kimi mühüm məsələlər müəyyən edilib. Ölkədə informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün kibertəhdidlərə qarşı mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqi, yeni təkmil texnoloji infrastruktur komponentlərinin formalaşdırılması məqsədilə dövlət başçısının 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" təsdiqlənib. Sözügedən Strategiyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün yeni texnoloji həllərin tətbiqinin və daim inkişaf etdirilməsinin zəruri olduğuna xüsusi diqqət çəkilib. Prezident İlham Əliyevin 2025-ci il 16 yanvar tarixli müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" rəqəmsal inkişafın əlaqələndirilmiş formada həyata keçirilməsini, rəqəmsal infrastrukturun gücləndirilməsini, vahid rəqəmsal arxitekturanın qurulmasını və texnoloji adaptasiyanın sürətləndirilməsini əsas hədəflər kimi müəyyən edib. Azərbaycan Respublikasında süni intellektin inkişafının sürətləndirilməsi, bu sahədə tədqiqatlar aparılmasının təşviq edilməsi, Sİ üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Cənubi Qafqazda ilk olaraq ölkəmizdə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiqlənib. Həmçinin, Prezident İlham Əliyevin 2025-ci il 12 avqust tarixli Fərmanı ilə dövlət informasiya sistemlərinin və ehtiyatlarının inteqrasiyasını, eləcə də elektron xidmətlərdən "bir pəncərə" prinsipi əsasında istifadəni təmin edən Elektron Hökumət İnformasiya Sisteminin Əsasnaməsi təsdiq edilib. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya" ilə iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılması, iqtisadi sahələrdə rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin genişləndirilməsi üçün tədbirlər müəyyən edilib. Cari ilin fevral ayında Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və verilən tapşırıqlara əsasən, rəqəmsal inkişaf üzrə Fəaliyyət Planı təsdiqlənib.

**Zəruri infrastrukturun yaradılması**

Rəqəmsal İnkişaf Şurasının ilk iclasında Mehriban xanım Əliyeva rəqəmsallaşma sahəsində müəyyənləşdirilən hədəflərə diqqət çəkib. "Bizim məqsədimiz yalnız yeni texnologiyaları tətbiq etmək deyil, eyni zamanda, ölkə iqtisadiyyatına güclü təkan verilməsi, yeni müasir innovasiya ekosisteminin formalaşdırılması, yerli və xarici investisiyaların ölkəyə cəlb olunması, yerli startaplara dəstək göstərilməsi və daha səmərəli dövlət idarəetmə sisteminin yaradılmasıdır", - deyə Birinci vitse-prezident vurğulayıb.

Aydın məsələdir ki, mühüm məqsədlərə çatmaq hədəflənərkən ilk növbədə ölkədə yaradılan infrastruktur təminatına istinad olunub. Ölkəmizdə zəruri infrastrukturun qurulması istiqamətində çoxsaylı layihələr reallaşdırılıb. Son 4 il ərzində orta internet sürəti 7 dəfə artaraq 12.81 Mbit/saniyədən 90 Mbit/saniyəyədək yüksəlib. Müvafiq Strateji Yol Xəritəsində nəzərdə tutulan tədbirlərin icrası çərçivəsində "Onlayn Azərbaycan" layihəsi həyata keçirilib və mövcud ADSL avadanlığının müasir IMS platforması ilə işləyən GPON avadanlığı ilə əvəz edilməsi, köhnə mis magistral kabel infrastrukturunun optik kabellərlə əvəzlənməsi və optik paylayıcı şəbəkənin qurulması prosesi yekunlaşdırılıb. Ötən 4 ildə ölkədə sabit genişzolaqlı, yüksəksürətli internetə çıxış imkanı yaradılmış təsərrüfatların sayı 20 dəfədən çox artaraq təxminən 4.8 milyona çatdırılıb, nəticədə ölkənin sabit genişzolaqlı internetlə əhatəsi tam təmin edilib. Son 3 ildə respublika üzrə genişzolaqlı internetin illik orta sürəti 2 dəfə, son 6 il ərzində isə 10 dəfə artıb və 2026-cı ilin yanvar ayına olan məlumata əsasən, bu göstərici 90 Mbit/saniyəyə çatıb. Bununla da ölkə ərazisinin fiberoptik şəbəkə ilə geniş əhatə olunması tam yekunlaşıb.

**Yeni Fəaliyyət Planının icrası uğurla təmin edilir**

Rəqəmsal İnkişaf Şurasının ilk iclasında



"Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın uğurla icra edilməsindən məmnunluq ifadə olunub. Bildirldiyi kimi, fəaliyyət planı rəqəmsallaşma, süni intellekt, innovasiya ekosistemi və kibertəhlükəsizlik istiqamətləri üzrə 58 təşəbbüsü əhatə edir. İndiyədək rəqəmsallaşma istiqamətində 40 dövlət qurumu ilə Yol xəritələri hazırlanıb, onlardan 13-ü artıq təsdiqlənib və ya təsdiq mərhələsindədir. Milli Məlumat Hövzəsinin yaradılması barədə məlumat verilib. Dövlət informasiya sistemlərinin hökumət buluduna miqrasiyası və yeni data mərkəzinin tikintisi üzrə işlər davam etdirilir. "Mygov" platformasının xidmət dairəsi genişləndirilib, son üç ayda istifadəçilərin sayı 2,7 milyondan 3,5 milyona çatıb. Eləcə də bir neçə tətbiq platformaya inteqrasiya olunub, daha yeddi dövlət tətbiqinin xidmətlərinin isə ilin sonunadək vətəndaşların istifadəsinə verilməsi nəzərdə tutulur.



Gələcəkdə vətəndaş və bizneslər dövlət xidmətlərinə çıxış üçün bir neçə mobil tətbiqdən istifadə etməyəcəklər və bütün proseslər "mygov" və "mygov biznes" platformaları üzərində aparılacaq. Artıq bu prosesə başlanılıb və qısa müddət ərzində "e-Sosial", "e-Təbib" və "e-Su" tətbiqləri tam şəkildə platformaya inteqrasiya olunub. Bundan əlavə, "e-Polis", "Mobil Notariat", "Azərişıq", "Reseptim", "e-Səhiyyə", "MigAz" və "ASAN Müraciət" tətbiqlərinin bir çox xidmətləri artıq inteqrasiya edilib və ilin sonunadək onların bütün xidmətlərinin tam şəkildə "mygov" üzərindən təqdim edilməsi planlaşdırılır. Bundan sonra yaşa görə əmək pensiyası təyin edilərkən vətəndaşın ayrıca müraciət etməsinə ehtiyac qalmayacaq və dövlət informasiya sistemlərində mövcud məlumatlar əsasında pensiya proaktiv qaydada təyin olunacaq. Eyni qayda uşağın anadan olmasına görə birdəfəlik müavinətin təyin edilməsində də tətbiq olunacaq. Doğum faktı dövlət sistemlərində qeydə alındıqdan sonra valideynin əlavə sənəd təqdim etməsinə və ya müraciət etməsinə ehtiyac olmadan müvafiq ödəniş proaktiv şəkildə həyata keçiriləcək. Vətəndaşlar şəxsiyyət vəsiqəsi, ümumvətəndaş pasportu və ya sürücülük vəsiqəsinin etibarlılıq müddəti başa çatmazdan əvvəl avtomatik şəkildə məlumatlandırılacaqlar. Bu, sənədlərin vaxtında yenilənməsini asanlaşdıracaq və əlavə inzibati çətinliklərin qarşısını alacaq. Səfərbərlik üzrə hərbi xidmətə tibbi müayinəyə çağırışlar rəqəmsal formada həyata keçiriləcək. Müvafiq şəxslər dövlət informasiya sistemləri vasitəsilə vaxtında məlumatlandırılacaq və çağırış prosesi daha operativ və şəffaf şəkildə təşkil olunacaq .

***Mübariz FEYİZLİ***

# Heydər Əliyev Fondunun vitse-prezidenti Şəkidə...

## Leyla Əliyeva 6 saylı Uşaq evi sosial xidmət müəssisəsində, İncəsənət Məktəbində, mədəniyyət və istirahət parkında olub



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyunun 30-da Şəkidə 6 saylı Uşaq evi sosial xidmət müəssisəsində olub. AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva müəssisədəki uşaqların iştirakı ilə nümayiş etdirilən bədii proqramı izləyib. Həmçinin uşaqlara hədiyyələr təqdim edilib, onlarla şəkillər çəkdirilib.

Qeyd edək ki, 1936-cı ildən 2 nömrəli Uşaq evi kimi fəaliyyətə başlayan müəssisə 1988-ci ildən Şəki Qarışıq Tipli Uşaq Evi adı ilə fəaliyyətini davam etdirib. 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə müəssisənin yeni inşa olunan binası istifadəyə verilib. Müəssisədə valideyn himayəsindən məhrum olmuş uşaqlar yaşayırlar. Burada uşaqlara sosial uyğunlaşmanın təmin olunması üçün sosial reabilitasiya tədbirləri həyata keçirilir, asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif xidmətlər göstərilir. Müəssisədəki uşaqlar sosial-məişət, sosial-psixoloji, tibbi-sosial, sosial-pedaqoji və sosial-hüquqi xidmətlər ilə təmin olunurlar.



Daha sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Şəki şəhərində İncəsənət Məktəbinin yeni istifadəyə verilən binası ilə tanış olub. Leyla Əliyevaya İncəsənət Məktəbi barədə ətraflı məlumat verilib. Bildirilib ki, 1938-ci ildə tikilən bina ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binası inşa edilib. İki korpusdan ibarət təhsil müəssisəsi 430 şagird yerlikdir. Məktəb zəruri mebel və avadanlıqlar, həmçinin əyani vəsaitlərlə təchiz edilib. Burada musiqi, nəzəriyyə, xor, fotoqrafiya, rəssamlıq, heykəltaraşlıq, dizayn otaqları, xoreoqrafiya və akt zalları, kitabxana, yeməkxana müəllim və uşaqların istifadəsinə verilib. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Şəki şəhər Məhəmməd Füzuli adına mədəniyyət və istirahət parkında da olub. Burada Leyla Əliyevaya ərazidə görüləcək bərpa və yenidənqurma işləri barədə məlumat verilib.

Bildirilib ki, 1951-ci ildə salınan parkda bir sıra əsaslı bərpa və yenidənqurma işlərinin aparılması nəzərdə tutulur. Qeyd olunub ki, parkın ərazisində vaxtilə şəhər sakinlərinin və qonaqların ən sevimli istirahət yeri olan, musiqi və teatr kollektivlərinin, tanınmış mədəniyyət və incəsənət xadimlərinin vaxtaşırı çıxış etdiyi "Yay teatrı" da fəaliyyət göstərib. Diqqətə çatdırılıb ki, 1800 nəfərlik tamaşaçı yeri olan "Yay teatrı"nda 1975-1980-ci illərdə Azərbaycanın görkəmli estrada və opera müğənnisi Rəşid Behbudovun, Xalq artisti Zeynəb Xanlarovanın, dirijor və bəstəkar Niyazinin rəhbərliyi ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin çıxışları olub, 1981-ci ildə Nəsibə Zeynalova və Hacıbaba Bağırovun iştirakı ilə teatr kollektivlərinin tamaşaları nümayiş etdirilib. Həmçinin 1982-1995-ci illərdə burada tanınmış xanəndə və müğənnilər Əlibaba Məmmədov, Məhəbbət Kazımov, Məmmədbağır Bağırzadə, Mələkxanım Əyyubova, Nisə Qasımova, Səxavət Məmmədov, Zaur Rzayev və digərlərinin konsertləri keçirilib.



Park ərazisində aparılan təmir işləri çərçivəsində Azərbaycanın dahi şairi Məhəmməd Füzulinin büstü parkdan götürülərək bərpa olunub və yenidən həmin istirahət məkanına qoyulub.

Qeyd olunub ki, bərpa işləri zamanı əsas hədəf freskaları, yerli heykəltaraşların əsərlərini, teatrı bərpa etmək, tamaşaçıları bura yenidən qaytarmaq, parkı ailə istirahət məkanına çevirməkdir.







# Azad Şuşadan İslam və Türk dünyalarına çağırışlar

Türk Dövlətləri Təşkilatı (TDT) regional sabitliyin və beynəlxalq əməkdaşlığın mühüm platformalarından biri qismində çıxış edir. Eyni zamanda, TDT daxilində müxtəlif sahəvi təsisatların formalaşdırılması yolu ilə qurumun institusional strukturunun əhatə dairəsi getdikcə genişləndirilir. Bu istiqamətdə fəaliyyətlərin davamı olaraq bu günlərdə azad Şuşada Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin Birinci görüşü keçirilib. Tədbirdə TDT-nın Baş katibi, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dini sahədə səlahiyyətli dövlət qurumlarının rəhbərləri və nümayəndə heyətlərinin üzvləri iştirak ediblər.

## Azərbaycanın İslam həmrəyliyinin və türk birliyinin möhkəmlənməsində mühüm rolu

TDT daxilində üzv ölkələrin hər birində çox həssas yanaşma sərgilənən din məsələləri ilə bağlı yeni platformanın yaradılması üçün Azərbaycanın məkan seçilməsi təsadüfi deyil. Müstəqil Azərbaycan müasir dövlət kimi inkişaf etməklə bərabər, özünün milli, dini dəyərlərinə bağlılığı ilə seçilir. Ölkəmizdə tarixi ənənələr, milli-mənəvi dəyərlər yaşadılır, zənginləşdirilir və nəsillərdən-nəsillərə ötürülür. Qədim tarixə malik Azərbaycan xalqının milli-mənəvi dəyərləri sisteminin formalaşmasında və zənginləşməsində İslam dini mühüm rol oynayıb.

Vurğulandığı kimi, Azərbaycan həm də dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verən ölkədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, müsəlman ölkələri ilə həm ikitərəfli əsasda, həm də ortaq təşkilatlar çərçivəsində münasibətlərin inkişafı ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Qarşılıqlı etimadın gücləndirilməsinin nəticəsi olaraq indiyədək Azərbaycanla İslam coğrafiyasında yer alan ayrı-ayrı dövlətlər arasında sıx siyasi təmaslar qurulub, enerji, nəqliyyat, humanitar və digər istiqamətlərdə çoxsaylı layihələr reallaşdırılıb. Respublikamız öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında ilk olaraq İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olmaq barədə müraciət ünvanlayıb və 1991-ci il dekabrın 8-də qurumun Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilib. Ötən dövrdə Azərbaycan təşkilatla sıx əlaqələr qurub.

Eyni zamanda, Azərbaycan da hər zaman haqq mübarizəsində İslam dünyasının ölkəmizlə həmrəyliyini hiss edib. İƏT Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə daim dəstək göstərib, Ermənistanın işğalçılıq siyasətini qınayıb, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərini alqışlayan qətnamə və bəyanatlar qəbul edib.

Azərbaycan həmçinin türk birliyinin möhkəmlənməsində müstəsna rol oynayır. Şuşada baş tutan tədbirdə xatırladılıb ki, Prezident İlham Əliyevin müəyyən etdiyi xarici siyasət kursunda Türk dünyasının birliyinin möhkəmləndirilməsi strateji prioritetlərdən biridir. Vurğulandığı kimi, dövlət başçımızın ifadə etdiyi "Bizim bir ailəmiz var, o da Türk dünyasıdır" fikri hazırda türkdilli ölkələr arasında əməkdaş-



lığın ideoloji əsasını təşkil edir. 100 il bundan əvvəl Bakı Birinci Türkoloji Qurultaya ev sahibliyi edib. Çox doğru olaraq həmin qurultay türk həmrəyliyinin möhkəmlənməsində mühüm bir mərhələ sayılır. Birinci Türkoloji Qurultayın irsi bu gün də çox aktualdır və bu irsi yaşatmaq, zənginləşdirmək, gələcək nəsillərə ötürmək bütün türk xalqlarının ortaq məsuliyyətidir. Biz qürur duyuruq ki, artıq beynəlxalq təsisat kimi fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatının əsası Prezident İlham Əliyevin təşəbbüsü ilə 2009-cu ildə Naxçıvanda qoyulub. Bundan sonra isə respublikamız qurumun institu-




sional təsisat kimi formalaşmasında və funksionallığının artmasına həmişə özünün sanballı töhfələrini verib. Yeri gəlmişkən, Azərbaycanın dünyada türk həmrəyliyinin möhkəmlənməsinə verdiyi töhfələr qardaş ölkələrdə yüksək dəyərləndirilir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu günlərdə ölkəmizin ev sahibliyi ilə keçirilən "Türk dünyası Həftəsi" nin açılış tədbirinin iştirakçılarına ünvanladığı müraciətində qeyd edib ki, 1926-cı ildə Birinci Türkoloji Qurultayın məhz Bakıda keçirildiyi kimi, onun 100 illiyinə həsr olunmuş tədbirin də Azərbaycan paytaxtında təşkil olunması təsadüfi deyil. Onun sözlərinə görə, türk dünyasının birlik və həmrəyliyinin ən güclü müdafiəçilərindən olan Azərbaycan bu gün də türk dövlətlərinin ortaq məqsədlərinin həyata keçirilməsinə mühüm töhfə verir.



## Azad Şuşa İslam və türk dünyalarının qürur mənbəyidir

TDT daxilində xalqlarımız arasında mənəvi bağların, inteqrasiyanın daha da dərinləşməsini hədəfləyən yeni bir platformanın təməlinin Şuşada qoyulması da təsadüfi deyil. Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan bu tarixi şəhərin Azərbaycan xalqı üçün xüsusi bir önəmi var. Şuşanın tariximizdə, milli mədəniyyətimizdə əvəzolunmaz yerini dəyərləndirən dövlətimizin başçısı vurğulayıb: "Şuşa Azərbaycan mədəniyyətinin ocağıdır. Şuşanın Azərbaycan tarixində çox böyük rəmzi mənası var. Şuşa Qarabağın tacıdır".

Xalqımız Şuşanın işğal altında qalması ilə heç vaxt barışmadı. Təxminən üç onilliyi əhatə edən işğal dövründə hər bir azərbaycanlının qəlbi Şuşa ilə döyünürdü. Nəhayət, İkinci Qarabağ müharibəsi günlərində 2020-ci il noyabrın 8-də əziz şəhərimiz azadlığına qovuşdu. Şuşanın xüsusi təyinatlı qüvvələrimiz tərəfindən geri qaytarılması bir qəhrəmanlıq dastanıdır. Onlar meşə cığırlarından keçməklə, sıldırım qayaları aşmaqla mümkünsüz görünəni reallığa çevirdilər və adlarını tarixə yazdılar.

Uca dağlar qoynunda qərar tutan Şuşanın azad edilməsi yalnız Azərbaycan xalqı üçün deyil, həm də bütün İslam və türk dünyası üçün qəhrəmanlıq rəmzinə, qürur mənbəyinə çevrilib. Təsadüfi deyildir ki, həm İslam coğrafiyasında, həm də türk dünyasında Şuşaya xüsusi həssas yanaşma sərgilənir. Xatırladaq ki, 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunub. Qeyd edək ki, "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əsası 2010-cu ildə türkdilli ölkə başçılarının İstanbul şəhərində keçirilən 10-cu sammitində qoyulub. Qərara əsasən, türk dünyasından hər il bir şəhər "mədəniyyət paytaxtı" elan edilir. Şuşa türk dünyasından bu missiyanı yerinə yetirən 11-ci şəhərdir.

Azad Şuşada həmçinin 2024-cü il iyulun 5-6-da Türk Dövlətləri Təşkilatının sıralarında təmsil olunan dövlətlərin liderlərinin və digər qonaqların iştirakı ilə qurumun qeyri-formal Zirvə görüşü keçirilib. Şuşada bu formatda Zirvə görüşünün təşkili TDT üçün yeni bir başlanğıc idi.

Azad Şuşa həmçinin 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı seçilib. Dövlətimizin başçısının müvafiq Sərəncamına uyğun olaraq İslam dünyasının tarixində əbədi qalacaq müxtəlif tədbirlərlə zəngin Şuşa ili keçirilib.

## Gələcək fəaliyyət üçün yol xəritəsi

Hazırda dünyanın mənzərəsi bir sıra ziddiyyətli məqamlarla səciyyələnir. Xüsusilə də ekstremizm, ksenofobiya, ayrı-seçkiçilik, dözümsüzlük kimi tendensiyaların geniş vüsət alması, mədəniyyətlərin yanaşı mövcudluğunun sanki inkar edilməsi böyük narahatlıq doğurur. Belə bir şəraitdə İslam və türk dünyaları üçün də ciddi çağırışlar yaranıb. Prezident İlham Əliyev bu günlərdə Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına ünvanladığı məktubunda bu xüsusda fikirlərini ifadə edərək vurğulayıb ki, bu gün dünyada müsəlmanlara qarşı nifrətin aşılanması, İslam mədəni irsinin hədəfə alınması və İslam dəyərlərinin təhqir olunması geniş vüsət almışdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi heç bir halda ifadə azadlığı ilə əsaslandırıla bilməz və tamamilə qəbuledilməzdir.

Şuşada keçirilən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini məsələlər üzrə dövlət qurumları rəhbərlərinin Birinci görüşündə İslam və türk dünyaları üçün yaranan çağırışlar nəzərə alınmaqla İslam və türk dünyaları üçün yol xəritəsi sayıla biləcək 11 bənddən ibarət Kommünike imzalanıb. Sənəddə Türk dövlətləri arasında dünyəvilik prinsipləri əsasında dövlət-din münasibətlərinin inkişaf etdirilməsi, dini sahədə təcrübə mübadiləsinin genişləndirilməsi, dini təhsil sahəsində əməkdaşlığın inkişafı, gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, ailə institutunun möhkəmləndirilməsində qadınların rolunun artırılması, o cümlədən rəqəmsal informasiya mühitində dini maarifləndirmənin gücləndirilməsi ilə bağlı müddəalar öz əksini tapıb. Bununla yanaşı, Kommünikedə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində tarixi-dini və mədəni irsin bərpasına dəstəyin ifadə edilməsi, türk coğrafiyasında məzhəblərarası anlaşma və İslam həmrəyliyinin təşviqi, Türk-İslam mədəni irsinin beynəlxalq səviyyədə təbliği, həmçinin dini radikalizm, ekstremizm, terrorizm, islamofobiya və digər destruktiv təzahürlərə qarşı birgə mübarizənin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

***Mübariz Abdullayev***

## Bakıda QDTİB Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı keçirilir

# Azərbaycan üçün etibarlı tərəfdaş

İyulun 1-də Bakıda Azərbaycan Respublikasının sədrliyi ilə Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı keçirilib. Əvvəlcə QDTİB-nin prezidenti







Serhat Köksal və bankın rəhbər heyəti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib, abidəsi önünə gül dəstələri düzüblər. Daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə güllər qoyulub.

AZƏRTAC xəbər verir ki, İllik Toplantının açılış mərasimində çıxış edən maliyyə naziri, QDTİB-nin Azərbaycan üzrə rəhbəri Sahil Babayev bu mötəbər tədbirin qlobal iqtisadiyyatda mühüm transformasiyaların baş verdiyi bir dövrə təsadüf etdiyini bildirib. Nazir geosiyasi dəyişikliklər, iqlim çağırışları və təchizat zəncirlərinin yenidən formalaşdığı şəraitdə regional əməkdaşlığın gücləndirilməsi üçün kapitalın, innovasiyaların və insan potensialının bir araya gətirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Sahil Babayev son illərdə Azərbaycanda iqtisadiyyatın dayanıqlığının artırılması, şaxələndirilməsi və regional əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl iqtisadi siyasətdən bəhs edib. Nazir bu prioritetlər çərçivəsində enerji sektoru ilə yanaşı, nəqliyyat-logistika, rəqəmsal iqtisadiyyat və bərpaolunan enerji kimi qeyri-neft sahələrinin inkişafına xüsusi diqqətin yetirildiyini bildirib. O, diqqətə çatdırıb ki, Avropa, Mərkəzi Asiya, Cənubi Qafqaz və Yaxın Şərqi birləşdirən müasir nəqliyyat və logistika infrastrukturunun yaradılması məqsədilə mühüm investisiyalar həyata keçirilib.

Çıxışında ölkəmizin tranzit potensialına da toxunan maliyyə naziri Azərbaycanın Avrasiya məkanında mühüm iqtisadi və logistika qovşağına çevrildiyini vurğulayıb. Bildirilib ki, xüsusilə "Orta Dəhliz"in artan strateji əhəmiyyəti, limanlara, avtomobil və dəmir yollarına, logistika mərkəzlərinə, habelə rəqəmsal infrastruktura yönəlmiş irimiqyaslı investisiyalar ölkənin tranzit və etibarlı ticarət tərəfdaşı kimi mövqeyini daha da möhkəmləndirib.

Azərbaycan ilə QDTİB arasında əməkdaşlıq münasibətlərindən danışan Sahil Babayev qeyd edib ki, banka üzv ölkələri yalnız coğrafi yaxınlıq deyil, həm də ticarət, investisiya və davamlı inkişaf naminə ortaq maraqlar birləşdirir. O bildirib ki, QDTİB Azərbaycan üçün etibarlı tərəfdaş olmaqla yanaşı, regional inteqrasiyanın dərinləşdirilməsi və innovasiyaların təşviqi vasitəsilə mövcud potensialın real iqtisadi imkanlara çevrilməsinə mühüm töhfə verir. Nazir bankın özəl sektorun inkişafına, infrastruktur layihələrinin maliyyələşdirilməsinə və ticarətin dəstəklənməsinə verdiyi dəstəyi yüksək qiymətləndirərək prioritet istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduqlarını ifadə edib.

QDTİB-nin prezidenti Serhat Köksal çıxışında bankla uzun illər ərzində formalaşmış möhkəm və etibarlı tərəfdaşlığa görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib. O qeyd edib ki, Azərbaycan son onilliklər ərzində güclü institutlara, müasir infrastruktura və şaxələndirilmiş istehsal bazasına malik dinamik iqtisadiyyatı olan ölkəyə çevrilib. Serhat Köksal vurğulayıb ki, ölkə bu gün yalnız aparıcı enerji istehsalçısı kimi deyil, həm də Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji nəqliyyat və logistika qovşağı kimi mühüm rol oynayır.

O, əlavə edib ki, bankın Azərbaycandakı fəaliyyəti ölkənin dəyişən iqtisadi prioritetlərinə uyğun olaraq daim inkişaf edib. Bildirib ki, Bakıda keçirilən İllik Toplantı yeni tərəfdaşlıqların qurulması, investisiya imkanlarının qiymətləndirilməsi və Azərbaycanın növbəti inkişaf mərhələsinə praktiki dəstək mexanizmlərinin müzakirəsi üçün mühüm platformadır. Serhat Köksal təmsil etdiyi qurumun Azərbaycanın davamlı inkişafına töhfə verəcək yeni layihələrin həyata keçirilməsi istiqamətində əməkdaşlığı genişləndirməyə hazır olduğunu deyib.

İllik Toplantıda QDTİB-nin 2025-ci il üzrə fəaliyyəti qiymətləndirilib, maliyyə hesabatları təsdiq edilib və 2026-cı il üzrə büdcəsi müzakirə olunub.

Qeyd edək ki, 2027-ci ildə Bankın Rəhbərlər Şurasının 29-cu İllik Toplantısına sədrlik Bolqarıstana keçir. QDTİB-nin Rəhbərlər Şurasının 28-ci İllik Toplantısı bu gün, iyulun 2-də "Bazarların əlaqələndirilməsi və iqtisadiyyatların şaxələndirilməsi: Azərbaycan regional qovşaq rolunda" mövzusuna həsr olunacaq Biznes Forumla davam edəcək.

# İtkin düşmüş şəxslərin taleyi...

Ermənistan torpaqlarımızın işğalı dövründə xalqımıza qarşı çoxsaylı cinayətlər törədib. Azərbaycana qarşı hərbi təcavüz zamanı  dinc insanlar kütləvi qətlə yetirilib, girov götürülüb, eləcə də yaşayış məntəqələri tamamilə dağıdılıb. Eyni zamanda, müharibə dövründə itkin düşmüş minlərlə azərbaycanlının taleyi bugünədək məlum deyil. Ümumiyyətlə, itkin düşmüş şəxslərin taleyi Azərbaycanın gündəliyində mühüm yer tutur. Dövlətimiz bu məsələ ilə bağlı müxtəlif platformalarda çıxış edir,  məlumatlılığın artırılması üçün beynəlxalq konfranslar təşkil edir.



**ICMP ilə fəal əməkdaşlıq edilir**

Yeri gəlmişkən, iyunun 30-da Bakıda Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı və İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya (ICMP) ilə əməkdaşlıq çərçivəsində "İtkin düşmüş şəxslər məsələsinin həllində müasir yanaşmalar və əməkdaşlığın gücləndirilməsi" mövzusunda beynəlxalq konfrans keçirilib. Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini, general-leytenant Şərafət Həsənov İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiya (ICMP) ilə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası arasında təmasların İkinci Qarabağ müharibəsindən əvvəlki illərə təsadüf etdiyini, sonradan bu təmasların inkişaf etdirilərək əməkdaşlıq mərhələsinə çatdırıldığını bildirib. Qeyd edib ki, 2022-ci ilin aprelində Katrin Bombergerin rəhbərliyi ilə qurumun nümayəndə heyətinin Azərbaycana səfəri zamanı aparılmış müzakirələrin yekunu olaraq Dövlət Komissiyası və ICMP arasında itkin düşmüş şəxslərə aid məzar yerlərinin ekshumasiyası və meyit qalıqlarının eyniləşdirilməsi sahəsində əməkdaşlığa dair Protokol imzalanıb. Həmin vaxtdan bəri əməkdaşlıq intensiv xarakter alıb. "Azərbaycanın aidiyyəti dövlət qurumlarının razılığı ilə 2023-cü ilin iyun ayında ICMP-nin Qiymətləndirmə missiyası Azərbaycana səfər edib və müvafiq hesabat hazırlayıb. Bu hesabat 2025-ci ilin mart ayında Bakı şəhərində təşkil olunmuş konfrans çərçivəsində Dövlət Komissiyasına təqdim edilib. Həmin tədbirdə də nümayəndə heyətinə ICMP-nin baş direktoru Katrin Bomberger rəhbərlik edib. Aparılmış müzakirələr və keçirilmiş görüşlər zamanı ICMP-nin nümayəndə heyəti tərəfindən qurumun axtarış, qazıntı, ekshumasiya və eyniləşdirmə sahəsindəki imkanları və uğurları, maddi-texniki bazası, kadr potensialı və işlədiyi yeni elmi metodikalar barədə ətraflı məlumat verilib, qurum tərəfindən hazırlanmış elektron məlumat bazasının Azərbaycana təqdim edilməsi və aidiyyəti dövlət qurumlarının mütəxəssislərinə müxtəlif istiqamətlər üzrə, o cümlədən məlumat bazasının idarə edilməsi müvafiq rəy və protokolların beynəlxalq standartlara uyğun tərtibi sahəsində təlimlərin keçirilməsinə hazır olduqları bildirilib. Respublikamıza səfərin, keçirilmiş görüşlərin və aparılmış müzakirələrin nəticəsi olaraq ICMP-nin itkin düşmüş şəxslər probleminin həllində, yeni texnologiyaların və metodologiyaların tətbiqi sahəsində ölkəmizə dəstək verəcəyi və əməkdaşlığın davam etdirilməsi razılaşdırılaraq 2025-ci il üzrə "İş planı təklifi" hazırlanıb və icra edilib", - deyə Ş.Həsənov diqqətə çatdırıb.

Sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının fəaliyyətinə dair təqdimat edilib.

**"Bu, qlobal humanitar problemdir"**

Xarici işlər nazirinin müavini, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü Elnur Məmmədov çıxışında silahlı münaqişələr zamanı insanların itkin düşməsini yalnız ayrı-ayrı ailələrin deyil, bütövlükdə cəmiyyətlərin yaddaşında dərin iz buraxan faciə olduğunu vurğulayıb. Deyib ki, BMT Baş katibinin 2025-ci ilin mayında təqdim etdiyi "Silahlı münaqişələrdə mülki şəxslərin müdafiəsi" hesabatında dünyada çoxsaylı münaqişələrdə müşahidə edilən böyük insan təlefatının əsas səbəblərindən biri kimi beynəlxalq humanitar hüquqa hörmətin olmaması göstərilib. Bu reallıq bir daha təsdiq edir ki, itkin düşmüş şəxslər məsələsi yalnız milli gündəmin deyil, qlobal humanitar gündəmin də prioritet mövzularından biridir.

Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin (HTBİ) rəisi, tibb xidməti general mayoru Rüfət Əliyev çıxışında Ermənistanla Azərbaycan arasındakı münaqişədən uzun müddət




keçdiyini və aşkarlanmış məzarlıqlardan götürülmüş sümük nümunələrinin xüsusilə ətraf mühit amilləri nəticəsində ciddi şəkildə deqradasiyaya məruz qaldığını qeyd edib. Bildirib ki, DNT-nin fraqmentasiyası və kimyəvi zədələnmələr genetik profillərin əldə olunmasına ciddi maneələr yaradır. Onun sözlərinə görə, mütəxəssislər tərəfindən gücləndirilmiş protokolların və digər metodların tətbiq edilməsi sayəsində məhkəmə-tibbi ekspertiza mərhələsində çətin genetik tapşırıqları yerinə yetirmək mümkün olub.

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) baş direktoru Katrin Bomberger çıxışında təşkilat tərəfindən Azərbaycana göstərilən dəstəkdən danışıb. Bildirib ki, bununla bağlı ilk məsələ əməkdaşlıq, ikincisi isə itkin düşmüş şəxslər məsələsinin həlli üçün müasir mexanizmlərin inkişaf etdirilməsidir: "Əməkdaşlıq məsələsinə gəldikdə, ilk növbədə, dövlət daxilində əməkdaşlığın olması son dərəcə vacibdir. Azərbaycan nümunəsində görürük ki, bu məsələ ilə məşğul olmaq üçün itkin düşmüş şəxslər üzrə Dövlət Komissiyası yaradılıb və burada bu istiqamətdə fəaliyyət göstərən çoxsaylı dövlət qurumları, nazirliklər təmsil olunur. Fikrimizcə, belə bir institutun mövcudluğu son dərəcə əhəmiyyətlidir və dövlətlərin itkin düşmüş şəxslər məsələsinə necə yanaşmalı olduqlarının mühüm göstəricisidir".

**İndiyədək 934 şəxsə məxsus sümük qalıqları qəbul  olunub**

Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin direktoru, professor Ədalət Həsənov çıxışında Birinci Qarabağ müharibəsi ilə əlaqədar indiyə qədər Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyində ümumilikdə 934 şəxsə məxsus sümük qalıqları qəbul edildiyini, 327 şəxsin qalıqlarının eyniləşdirildiyini, 226 şəhidin meyitinin ailələrinə təhvil verildiyini deyib. Ədalət Həsənov, eyni zamanda, diqqətə çatdırıb ki, bu il iyulun 1-də 3, 3-də isə digər 3 şəhidin qalıqları ailələrinə təhvil veriləcək.

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) baş direktoru Katrin Bomberger ilə görüşüb. Xarici İşlər Nazirliyindən verilən  məlumata görə, görüş zamanı Azərbaycan ilə ICMP arasında əməkdaşlıq gündəliyi, münaqişədənsonrakı dövrdə itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi istiqamətində həyata keçirilən fəaliyyət, habelə bu sahədə beynəlxalq əməkdaşlığın əhəmiyyəti müzakirə olunub.

**Ceyhun Bayramov Katrin Bombergerlə görüşüb**

Ceyhun Bayramov Ermənistanın hərbi təcavüzü nəticəsində təxminən 4 minə yaxın azərbaycanlının taleyinin bu günədək naməlum qaldığını diqqətə çatdıraraq, itkin düşmüş şəxslər məsələsinin Azərbaycan üçün prioritet humanitar istiqamətlərdən biri olduğunu vurğulayıb. Bu çərçivədə Ermənistan tərəfindən kütləvi məzarlıqların yerləri, basdırılma faktları və mina xəritələri ilə bağlı mövcud məlumatların tam şəkildə təqdim edilməsinin itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulmasına dair saziş layihəsində itkin düşmüş şəxslər məsələsinə dair müddəanın xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu istiqamətdə etimadın qurulması və humanitar nəticələrin aradan qaldırılması üçün praktiki addımların vacibliyini qeyd ediblər.

Görüşdə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə ICMP arasında formalaşmış faydalı tərəfdaşlıq yüksək qiymətləndirilərək, bu əməkdaşlığın itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi, identifikasiya imkanlarının gücləndirilməsi və beynəlxalq təcrübənin tətbiqi baxımından mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Nazir Azərbaycan tərəfinin 44 günlük Vətən müharibəsindən sonra humanitar öhdəliklərinə sadiq qalaraq, mürəkkəb təhlükəsizlik şəraitinə və mina təhlükəsinə baxmayaraq genişmiqyaslı axtarış işləri həyata keçirdiyini, aşkarlanmış 2 mindən artıq erməni hərbçisinin cəsədini qarşı tərəfə təhvil verdiyini diqqətə çatdırıb. Bu addım Azərbaycanın beynəlxalq humanitar hüquqa hörmətinin və humanitar məsələlərdə konstruktiv yanaşmasının bariz nümunəsi kimi qiymətləndirilib.

Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aşkar olunan kütləvi məzarlıqlar, aparılan ekshumasiya və identifikasiya işləri, habelə aidiyyəti dövlət qurumları tərəfindən həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional məsələlər və ICMP-nin digər ölkələrdə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıblar.

*Nardar BAYRAMLI*

# Dayanıqlı məskunlaşmanın yeni mərhələsi

## Azad ərazilərdə Daimi Məskunlaşma Fondu yaradılır

Milli Məclis Mənzil Məcəlləyə, "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" və "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" qanunlara təklif edilən dəyişiklikləri üçüncü oxunuşda qəbul edib. Dəyişikliklər layihəsi məskunlaşma sahəsində görülən işlərin hüquqi bazasının təkmilləşdirilməsi, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə yaşayış sahələrinə köçürülməsi, onların mülkiyyət hüququnun təmini və məcburi köçkün statusunun itirilməsi ilə bağlı qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Mənzil Məcəlləsinə edilən dəyişiklik nəticəsində yeni institutun yaradılması üçün hüquqi mexanizm formalaşıb. Belə ki, işğaldan azad edilmiş ərazilərdə Daimi Məskunlaşdırma Fondu yaradılacaq.



Qaydalara əsasən, Məskunlaşdırma Fondu azad ərazilərdə yaşayış sahələrinin hüquqi tənzimləməsini həyata keçirəcək. Məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə daimi yaşayış sahələrinə köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi yeni qurum tərəfindən tənzimlənəcək. Fondun yaşayış sahələrinə məcburi köçkünlərin köçürülməsi və həmin yaşayış sahələrinin onların mülkiyyətinə verilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müəyyənləşəcək.

**Böyük Qayıdışın xoş müjdələri**

Qeyd edək ki, ərazilər işğaldan azad edildikdən sonra Qarabağ və Şərqi-Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri çərçivəsində keçmiş məcburi köçkünlər üçün şəhər və qəsəbələrin, kəndlərin inşası da davamlı xarakter alıb. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi və icrası keçmiş məcburi köçkünlərin beynəlxalq qanunvericiliyə uyğun könüllü, təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdışı prosesinin bütün aspektlərini əhatə edən tədbirlər müəyyənləşdirilib. 2022-ci ildə Zəngilana başlayan ilk köç layiqli məskunlaşmanın əsasını qoyub. Dövlət Proqramının icrası tədbirlər planına uyğun olaraq sürətlə davam etdirilir, köç karvanları bir-birinin ardınca yeni salınmış yaşayış məntəqələrinə istiqamət götürüb və proses ardıcıl şəkildə davam etdirilir.

Hazırda 10 şəhər, 3 qəsəbə və 31 kənd olmaqla 44 yaşayış məntəqəsində məskunlaşma təmin edilib. Belə ki, işğaldan azad edilənş ərazilərə təxminən 35 min keçmiş məcburi köçkün geri qayıdıb. Bu ərazilərdə fəaliyyət göstərən və təhsil alan şəxslərin ümumi sayı isə 85 mindən artıqdır. Onların hər biri layiqli yaşayışla təmin edilib, bütün kommunal xidmətlərə və digər müasir xidmət çeşidlərinə əlçatanlığı həll olunub.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynovun sözlərinə görə, indiyə qədər 12 rayon və 11 şəhər daxil olmaqla 91 yaşayış məntəqəsi üzrə yeni məskunlaşma planları təsdiqlənib və plan üzrə nəzərdə tutulan bütün tədbirlər davam etdirilir. Nəticədə 2026-cı ilin sonunadək həmin ərazilərdə 140 min vətəndaşın məskunlaşması təmin olunacaq.

**Yaşayış yerlərindən imtina köçkün statusunun itirilməsi deməkdir**

Yeri gəlmişkən, "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, məcburi köçkün statusunun itirilməsi halları da konkretləşdirilib. Həmin sosial qrupa aid olan şəxs yaşadığı regionda müəyyənləşdirilmiş ölçüdə başqa yaşayış yeri ilə əvvəlki yaşayış yerinin əvəzinə təmin ediləcək, bununla da dövlət tərəfindən yeni yaşayış sahəsinin verilməsi vətəndaşın mülkiyyət hüququnun tam bərpasına xidmət edəcək. Həmçinin sözügedən qanuna təklif olunan dəyişikliyə görə, şəxs dövlət tərəfindən təklif olunan həmin yaşayış yerindən imtina etdikdə məcburi köçkün statusunu itirəcək. Mövcud üçillik güzəşt müddətinin hesablanması şəxsin statusunu itirdiyi və ya mənzildən imtina etdiyi tarixdən müəyyən ediləcək.

Həmçinin, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" "qanunun 5-ci maddəsinə edilən dəyişikliyə əsasən, məcburi köçkünlərin köçürülməsi mexanizmi də dəyişdirilir. Yeni qaydalara əsasən, dövlət öhdəliyi yaşayış sahəsinin təklif edilməsi ilə icra olunmuş hesab ediləcək. Bununla da həm məcburi köçkünlərin mənzil hüquqları, həm də üçüncü şəxslərin maraqları arasında balans təmin olunacaq.



**Bölgənin iqtisadi reinteqrasiyaya qoşulmasında etibarlı mexanizm**

Qeyd edək ki, dövlət tərəfindən keçmiş məcburi köçkünlər üçün məskunlaşma və əhatəli sosial tədbirlər davamlı xarakter almaqdadır. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair 1-ci Dövlət Proqramı"nın icrası ilə bağlı möhkəm hüquqi baza yaradılıb, qanunvericilikdə müvafiq dəyişikliklər edilərək Qarabağda və Şərqi Zəngəzurda işləyən və məskunlaşan şəxslər üçün yeni müavinət növü təsis edilib, məzuniyyət, vergi, sosial sığorta güzəştləri və imtiyazları müəyyən olunub. Dövlət həmin sosial kateqoriya üzrə insanların məşğulluğu, yaşayış imkanlarının artırılması üçün də ardıcıl tədbirlər görür.

Beləliklə, yuxarıda qeyd edilən qanunlara edilən dəyişikliklər sürətlə icra olunan dövlət siyasətinin və ölkəmizin uzunmüddətli inkişaf strategiyasının əsas prioritetlərindən olan Böyük Qayıdışın hüquqi bazasını möhkələndirmək məqsədi daşıyır, azad edilmiş ərazilərdə məcburi köçkünlərin mülkiyyət hüquqlarının təmin olunmasına və onların dayanıqlı məskunlaşma prosesinin sürətləndirilməsinə xidmət edir. Bu siyasət isə əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılmasında mühüm rol oynayacaq. Eyni zamanda. Böyük Qayıdış üzrə hədəflərin, o cümlədən azad ərazilərdə əhalinin işgüzar fəallığının artımı fonunda bölgənin iqtisadi reinteqrasiyaya qoşulmasında etibarlı mexanizm olacaq.

*E.CƏFƏRLİ*

# Avropada strateji təhlükəsizliyin yeni mərhələsi

## NATO-Rusiya, yoxsa Aİ-ABŞ qarşıdurması?




Müasir beynəlxalq münasibətlər sistemi son onilliklərin ən mürəkkəb və riskli mərhələsinə daxil olub. Soyuq müharibədən sonra formalaşmış nisbi balans mexanizmləri artıq əvvəlki funksionallığını itirir və dünya siyasəti getdikcə daha açıq güc qarşıdurmaları üzərində qurulur. Qlobal miqyasda müşahidə edilən tendensiyalar göstərir ki, dövlətlərarası münasibətlərdə kompromis və əməkdaşlıq elementləri zəifləyir, əvəzində isə strateji rəqabət, hərbi güc nümayişi və nüvə çəkindirmə faktorunun yenidən aktuallaşması ön plana çıxır.

Bu prosesin ən kəskin təzahürlərindən biri Rusiya-Ukrayna müharibəsidir. Dörd ildən artıq davam edən bu münaqişə artıq yalnız regional savaş kimi deyil, NATO ilə Rusiya arasında genişmiqyaslı geosiyasi qarşıdurmanın əsas episentri kimi qiymətləndirilir. Müharibənin uzanması, yeni silah sistemlərinin tətbiqi, Qərbin Ukraynaya hərbi və maliyyə dəstəyinin artması, Rusiyanın isə hərbi sənayesini genişləndirməsi qlobal təhlükəsizlik mühitini daha da gərginləşdirir.

Paralel olaraq Yaxın Şərqdə müəyyən nisbi sabitlik müşahidə olunması dünya siyasi gündəminin mərkəzini yenidən Avropaya keçirib. Xüsusilə nüvə silahı ilə bağlı ritorikanın güclənməsi, NATO və Rusiya arasında birbaşa sərhəd xəttinin genişlənməsi və Arktika regionunun strateji əhəmiyyətinin artması beynəlxalq sistemdə yeni risklərin formalaşdığını göstərir. Bu kontekstdə Finlandiya ətrafında baş verən proseslər xüsusi diqqət çəkir.

**Helsinki qərarı təsdiqlədi...**

Qeyd edək ki, Finlandiyada nüvə silahının yerləşdirilməsi ilə bağlı yeni iddialar gündəmə gəlib. Söhbət Rusiya sərhədindən təxminən 147 kilometr məsafədə yerləşən Rovaniemi aviabazasından gedir. Xarici media yazır ki, Finlandiya Prezidenti Aleksandr Stubb ölkə ərazisinə nüvə silahının gətirilməsi və saxlanılmasına hüquqi imkan yaradan qanun dəyişikliklərini təsdiqləyib.

Məlumata görə, Rusiyanın Helsinkidəki səfirliyi hazırda Finlandiyada nüvə silahının yerləşdirilməsinə hazırlıq aparıldığını təsdiqləyən konkret əlamətlərin müşahidə edilmədiyini bildirib. Bununla belə, yaxın dövrdə Rovaniemi aviabazasına ABŞ istehsalı olan və B61-12 tipli nüvə bombalarını daşımaq imkanına malik F-35A qırıcılarının çatdırılması planlaşdırılır.

Eyni zamanda bildirilir ki, Helsinki Fransanın rəhbərliyi altında formalaşdırılan nüvə çəkindirmə təşəbbüsünə qoşulmaq niyyətindədir. Hazırda Norveç və Danimarka da həmin proqramın iştirakçıları sırasındadır.



Beləliklə, Rusiya sərhədinə yaxın yerləşən hərbi obyektlər və NATO-nun şimal cinahında artan hərbi fəallıq bu müzakirələri daha da aktuallaşdırır. Beləliklə, Finlandiya məsələsi artıq təkcə milli təhlükəsizlik deyil, bütövlükdə Avropa təhlükəsizlik arxitekturasının gələcəyi ilə bağlı strateji mövzuya çevrilib.

**Finlandiyanin NATO-ya üzvlüyü təsadüf idimi?**

Finlandiyanın 2023-cü ildə NATO-ya qoşulması Avropada təhlükəsizlik balansını ciddi şəkildə dəyişdirən hadisə kimi qiymətləndirilir. Uzun illər neytrallıq siyasəti yürüdən Helsinkinin bu qərarı yalnız Rusiya-Ukrayna müharibəsi ilə izah edilmir, əksinə, daha dərin geosiyasi proseslərin nəticəsi kimi qəbul edilir. Finlandiya Rusiya ilə 1300 kilometrdən artıq sərhədə malikdir və bu fakt onun strateji əhəmiyyətini avtomatik olaraq artırır. NATO baxımından bu üzvlük Alyansın şimal cinahını tamamlayaraq Rusiya ilə birbaşa təmas xəttini genişləndirib. Əvvəllər Baltik ölkələri və Polşa bu xəttin əsas hissəsini təşkil edirdisə, indi Finlandiya vasitəsilə Arktika istiqamətinə qədər uzanan yeni bir təhlükəsizlik zonası formalaşıb.

Bu dəyişiklik Rusiyanın hərbi planlaşdırmasına ciddi təsir göstərib. Moskva artıq şimal sərhədlərinə də xüsusi həssaslıqla yanaşmaq məcburiyyətində qalıb. Bu isə həm maliyyə, həm də logistika baxımından əlavə yük yaradır və Rusiyanın strateji manevr imkanlarını məhdudlaşdırır.

Digər tərəfdən, Finlandiya NATO üçün təkcə coğrafi deyil, həm də texnoloji və hərbi baxımdan mühüm tərəfdaşdır. Ölkənin yüksək səviyyəli müdafiə sistemi, sərt iqlim şəraitində döyüş təcrübəsi və inkişaf etmiş hərbi sənayesi Alyansın ümumi potensialını gücləndirir. Bu səbəbdən Finlandiyanın üzvlüyü təkcə genişlənmə deyil, həm də keyfiyyət dəyişimi kimi qiymətləndirilir.

**NATO-nun şimal strategiyasi**

Finlandiyada nüvə silahlarının yerləşdirilməsi ilə bağlı müzakirələr NATO-nun yeni çəkindirmə strategiyasının bir hissəsi kimi çıxış edir. Rusiya dünyanın ən böyük nüvə arsenalına sahib dövlətlərindən biridir və onun strateji qüvvələrinin mühüm hissəsi şimal regionlarında cəmləşib. Xüsusilə Kola yarımadası və Arktika zonası Moskva üçün həyati əhəmiyyət daşıyır.

Finlandiyanın NATO-ya qoşulması Alyansa bu həssas regiona birbaşa çıxış imkanı yaradıb. Əgər gələcəkdə Finlandiya ərazisində nüvə daşıyıcı sistemlər və strateji hərbi infrastruktur yerləşdirilərsə, bu, Rusiyanın şimal təhlükəsizlik mühitini əhəmiyyətli dərəcədə dəyişəcək. NATO bunu çəkindirmə balansının qorunması kimi qiymətləndirir, lakin Moskva bunu açıq təhlükə kimi qəbul edir.

Eyni zamanda Arktika regionunda artan rəqabət bu prosesi daha da mürəkkəbləşdirir. İqlim dəyişiklikləri nəticəsində yeni dəniz yollarının açılması, enerji resurslarına çıxış imkanlarının artması və geostrateji mövqenin yüksəlməsi böyük güclərin marağını artırıb. Finlandiya bu baxımdan NATO-nun şimal strategiyasının əsas dayaqlarından birinə çevrilir.

**Avropanın nüvə siyasəti, yoxsa...**

Finlandiya ətrafında müzakirələr təkcə NATO və Rusiya arasında deyil, həm də Qərb blokunun daxilində yeni strateji xəttlərin formalaşdığını göstərir. Son illərdə Avropa ölkələri təhlükəsizlik sahəsində daha müstəqil mövqe formalaşdırmağa çalışırlar.

Bu kontekstdə Fransa Prezidenti Emmanuel Makronun irəli sürdüyü "Avropa nüvə çəkindirməsi" təşəbbüsü xüsusi əhəmiyyət daşıyır. Bu model Avropa ölkələrinin Fransanın nüvə potensialı ətrafında daha sıx inteqrasiyasını nəzərdə tutur. Almaniya, Polşa və digər ölkələrin bu istiqamətdə göstərdiyi maraq Avropada yeni təhlükəsizlik modelinin formalaşdığını göstərir.

Lakin bu proses ABŞ ilə Avropa arasında strateji fərqlərin artmasına da səbəb olur. Vaşinqton NATO daxilində lider mövqeyini qorumağa çalışır, Avropanın bir hissəsi isə təhlükəsizlikdə daha müstəqil xəttin formalaşmasını istəyir. Bu balans gələcəkdə NATO-nun daxili strukturuna da təsir edə bilər.

Finlandiya bu iki model arasında strateji keçid nöqtəsi kimi çıxış edir. O, həm ABŞ mərkəzli NATO sisteminə, həm də gələcək Avropa təhlükəsizlik arxitekturasına inteqrasiya oluna biləcək nadir ölkələrdən biridir.

**Yeni nüvə savaşı ərəfəsində...**

Finlandiya ətrafında baş verən proseslər Avropada təhlükəsizlik sisteminin yeni mərhələyə keçdiyini göstərir. NATO-nun genişlənməsi, Rusiya ilə sərhəd xəttinin şimal istiqamətində daha da yaxınlaşması və nüvə çəkindirmə mexanizmlərinin yenidən aktuallaşması qlobal təhlükəsizlik balansına birbaşa təsir edir.

Bir tərəfdən bu addımlar Alyansın müdafiə qabiliyyətini gücləndirir və çəkindirmə effektini artırır. Digər tərəfdən isə Rusiya ilə birbaşa hərbi təmas riskini yüksəldir və yeni silahlanma yarışını stimullaşdırır. Xüsusilə nüvə komponentinin gündəmə gəlməsi vəziyyəti daha da həssas edir.

Nəticə etibarilə, Finlandiya faktoru yalnız regional deyil, qlobal təhlükəsizlik sisteminin gələcəyini müəyyən edən əsas elementlərdən birinə çevrilir. Qarşıdakı illərdə bu prosesin hansı istiqamətdə inkişaf edəcəyi isə böyük güclər arasında dialoqun səviyyəsindən və beynəlxalq təhlükəsizlik mexanizmlərinin nə dərəcədə işlək olmasından asılı olacaq.

***P.İSMAYILOV***

# Burkina-Faso Fransa ilə diplomatik əlaqələrə xitam verir

## Yelisey Sarayı növbəti qalmaqalla üz-üzə



Hazırda dünya siyasətində izlənilən proseslərdən biri də Afrikada, dənizaşırı ərazilərdə yerli icmaların müstəmləkəçiliyə qarşı geniş etirazlarının güclənməsidir. Uzun illər ərzində müstəmləkəçilikdən əziyyət çəkən xalqlar ayağa qalxaraq azad, müstəqil yaşamaq, sərvətlərinin sahibi olmaq, milli kimliklərini qorumaq uğrunda iradələrini ortaya qoyurlar.

Bunu Fransa ilə bu ölkənin keçmiş və hazırkı müstəmləkələri arasında baş verənlər də aydın şəkildə təsdiqləyir. Deyə bilərik ki, Yelisey Sarayının təxminən 500 ili əhatə edən və ən irticaçı mahiyyəti ilə fərqlənən müstəmləkəçilik tarixi özünün qürub dövrünü yaşamaqdadır. Belə ki, Afrikada, dənizaşırı ərazilərdə getdikcə daha çox ölkədə "Rədd ol, Fransa!" şüarları səsləndirilir və bu ölkənin mövcudluğuna son qoyulur. Paralel şəkildə, müxtəlif vaxtlarda Fransanın müstəmləkəçilik siyasətindən azad olan ölkələr də Yelisey Sarayına qarşı kəskin iddialar irəli sürərək rəsmi Parisdən zamanında törətdiyi müstəmləkə cinayətlərinə görə üzr istəməsini və təzminatlar ödəməsini tələb edirlər.

**Hökumət kommünike yaydı...**

Yelisey Sarayı ilə Burkina-Faso arasında baş verənlər də bu qəbildəndir. Uzun müddət idi ki, Parislə Uaqaduqu arasında narazılıqlar yaşanırdı. Hazırda isə vəziyyət diplomatik qalmaqal səviyyəsinədək gərginləşib. Belə ki, Burkina-Faso hökuməti iyunun 26-dan etibarən Fransa ilə diplomatik münasibətlərin kəsilməsi barədə qərar qəbul edib. Hökumətin yaydığı kommünikedə bu qərarın iki ölkə arasında münasibətlərin vəziyyətinin hərtərəfli qiymətləndirilməsindən sonra qəbul olunduğu bildirilir. Sənəddə qeyd edilir ki, tərəflər arasında qarşılıqlı hörmət, etimad, daxili işlərə qarışmamaq və dövlət suverenliyinə hörmət prinsiplərinə əsaslanan münasibətlərin inkişafı üçün zəruri şərtlər artıq mövcud deyil.

Burkina-Faso hökuməti Fransanın həyata keçirdiyi siyasətin ölkənin maraqlarına zidd olduğunu iddia edir. Kommünikedə Parisin "neokolonial meyillər nümayiş etdirdiyi", həmçinin Sahel regionunda fəaliyyət göstərən təxribatçı və terrorçu şəbəkələri dəstəklədiyi irəli sürülür. Bundan əlavə, Fransa mediasının və rəsmilərinin Burkina-Faso ilə bağlı məlumatları qərəzli şəkildə təqdim etdiyi və bunun ölkənin beynəlxalq aləmdə nüfuzuna xələl gətirmək məqsədi daşıdığı vurğulanır.

Bəyanatda bildirilir ki, Burkina-Faso müstəqil xarici siyasət kursunu davam etdirmək, beynəlxalq tərəfdaşlıqları şaxələndirmək, Cənub-Cənub əməkdaşlığını genişləndirmək, bütün dövlətlərlə balanslaşdırılmış münasibətlər qurmaq, eləcə də sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqinə töhfə vermək əzmindədir.

Eyni zamanda, Burkina-Faso hakimiyyəti Parisə ölkədəki səfirliyini bağlamaq üçün yeddi gün vaxt verib. "Le Monde" qəzetinin məlumatına görə, Fransa səfiri Burkina-Fasodan 2023-cü ilin yanvarında çıxıb və həmin vaxtdan bəri onun vəzifələrini müvəqqəti işlər vəkili icra edib.

Burkina-Fasonun Fransa ilə diplomatik əlaqələri kəsmək qərarı Avropa Parlamentinin qətnaməsi ilə əlaqələndirilir. Bir neçə gün bundan əvvəl qəbul olunan qətnamədə Burkina-Fasoda fundamental vətəndaş azadlıqlarının məhdudlaşdırılması pislənilib. Qətnamə ilə bağlı səsvermədən sonra, Avropa İttifaqının nümayəndəsi Burkina-Faso Xarici İşlər Nazirliyinə çağırılıb və ona kəskin etiraz bildirilib, iyunun 27-də isə hökumət Fransa ilə diplomatik əlaqələri kəsdiyini bəyan edib.



**Fransa diplomatlarının casusluq fəaliyyətinə kəskin etiraz**

Qərbi Afrikada yerləşən Burkina-Fasonun (1984-cü ilədək Yuxarı Volta adlandırılıb - red.) fransızlar tərəfindən işğalına XIX əsrin sonlarından başlanıb. Burada uzun sürən döyüşlərdən sonra 1897-ci ildə Fransanın protektoratlığı tanınıb. Yelisey Sarayı Burkina-Fasoda müxtəlif idarəçilik quruluşları yaratmaqla öz mövcudluğunun ömrünü uzatmağa çalışıb. Lakin zaman-zaman idarəetmə formaları dəyişsə də, müstəmləkəçilik siyasətinin irticaçı mahiyyəti dəyişməyib. Sümürməçilik, sərvətlərin talanması, yerli əhalinin ucuz işçi qüvvəsi kimi istismar olunması, icmaların milli-mənəvi dəyərlərinin getdikcə daha eybəcər formada aşağılanması bu siyasətin xarakterik cəhətləri idi. Ölkə əhalisi bu kimi eybəcərliklərlə barışmayaraq azadlıq mübarizəsinə başlayıblar və bu mübarizə 5 avqust 1960-cı ildə Yuxarı Voltanın müstəqil dövlət elan edilməsi ilə nəticələnib.

Lakin uzun illər ötməsinə baxmayaraq, Yelisey Sarayı neokolonializm siyasətinə əl atmaqla, xüsusilə də iqtisadi təzyiqləri artırmaqla Burkina-Fasoda yenə də öz təsirlərini saxlamağa çalışır ki, bu da böyük narazılıqla qarşılanır. Xatırladaq ki, Parislə Uaqaduqu arasında budəfəki diplomatik qalmaqal ilk belə hadisə deyil. Bir qədər bundan əvvəl Burkina-Faso Xarici İşlər Nazirliyinin üç fransız diplomatı ölkədə təxribatçı fəaliyyətinə görə "persona non-grata" elan etməsi yaddaşlardan silinməyib. Casusluq fəaliyyətinə görə üç fransız diplomat 48 saat ərzində Burkina-Fasodan qovuldu. Bu, əlbəttə ki, dünyaya demokratiya dərsi keçməyə çalışan Fransa üçün böyük biabırçılıq idi.

**Burkina-Faso Fransanın müstəmləkə mirasını silməyə davam edir**

Ümumiyyətlə, Burkina-Faso Fransanın müstəmləkə mirasının bütün izlərini silməyə qərar verib. Ötən il ölkə prezidenti İbrahim Traore Fransa müstəmləkəçiliyinin "mirası" olan hakimlərin parik geyməsi üslubunu qadağan edib. Bildirilir ki, bu qadağa qitəni əhatə edən daha geniş mədəni intibahı əks etdirən simvolik addımdır. Prezidentin bəhs olunan qadağası ölkənin məhkəmə sisteminin, yerli və pan-Afrika mediasının müstəmləkəsizləşdirilməsində bir mərhələ hesab edilir. Burkina-Faso iki qonşusu, Mali və Niger kimi Fransanın müstəmləkə mirasını silməyə davam edir. Qitədə suveren liderlərin hakimiyyətə gəlməsi ilə getdikcə daha çox ölkənin müstəmləkə irsinə yenidən baxılır və fransız adları daşıyan prospektlərin, ictimai yerlərin və müəssisələrin adları dəyişdirilir.

Xatırladaq ki, 2022-ci ilin sentyabrında hakimiyyətə gələndən kapitan İbrahim Traore ölkənin suverenliyini öz idarəçilik prinsipinə çevirib. O, 1961-ci ildə Fransa ilə bağlanmış hərbi müqaviləni pisləyib və fransız qoşunlarının çıxarılmasını tələb edib. Niger, Burkina-Faso və Mali keçmiş müstəmləkəçi dövlət olan Fransanın onlardan sui-istifadə etmək üçün yaratdığı Cedeao təşkilatının təsirinə qarşı mübarizə apararaq, Sahel Dövlətləri Alyansını (AES) yaradıblar.

**Rəsmi Parisin gecikən cavabı**

Hələlik Burkina-Faso hökumətinin son diplomatik gedişinə rəsmi Parisdən konkret cavab gəlməyib. Burkina-Faso hökumətinin Fransa ilə diplomatik münasibətləri kəsdiyini elan etməsinin üstündən bir neçə gün vaxt keçməsinə rəğmən, Yelisey Sarayı "mümkün cavab tədbirlərini nəzərdən keçirdiyini" bildirməklə kifayətlənib. Bu tədbirlərin nədən ibarət olacağı barədə isə məlumat verilmir.

"Fransa Burkina-Fasonun diplomatik münasibətləri kəsmək barədə birtərəfli qərarından təəssüflənir. Bu addım Burkinabe hakimiyyətinin normal fəaliyyət kursundan kənara çıxdığını göstərir. Hazırda lazımi cavab tədbirləri nəzərdən keçirilir", - deyə Fransa Xarici İşlər Nnazirliyinin məlumatında bildirilib.

Fransa XİN, həmçinin Burkina-Fasoda dövlət qulluqçularının və fransız icmasının təhlükəsizliyinin xüsusi diqqət mərkəzində olduğuna dair təminat verib və onları çox ayıq-sayıq olmağa çağırıb.

***Mübariz FEYİZLİ***

# Ankara sammitinin əsas prioritetləri...

## Türkiyə NATO üzvləri arasında birliyi gücləndirməyə çalışır

**İyulun 7-8-də Ankarada keçiriləcək NATO sammitinə sayılı günlər qalır. Qeyd edək ki, sammit üzv ölkələrin dövlət və hökumət başçılarını bir araya gətirəcək. Bu, alyansın 36-cı zirvəsi və 2004-cü ildə İstanbulda keçirilən sammitdən sonra Türkiyənin ev sahibliyi etdiyi ikinci mötəbər tədbir olacaq.**

### Müharibələr, rəqəmsal transformasiya, süni intellektdən istifadə...




Artıq sammitin əsas prioritet hədəfləri açıqlanıb. Belə ki, Reuters agentliyinin məlumatına görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 7-8 iyul tarixlərində Ankarada keçiriləcək NATO sammitində müzakirələrin əsas mövzusunun alyans üzvləri arasında birliyin daha da gücləndirilməsi olacağını bildirib. Ərdoğan deyib ki, Zirvə görüşündə əsas gözləntimiz müttəfiqlərin milli təhlükəsizlik maraqlarını qoruyan nəticələr əldə etmək və alyansın həmrəylik və birlik ruhunu gücləndirməkdir. O, müttəfiqlərin görüş zamanı İran, Ukrayna və Qəzza zolağındakı müharibələri də müzakirə edəcəklərini bildirib və əlavə edib ki, Ankara 40 ildən çoxdur davam edən Kürdüstan Fəhlə Partiyasının (PKK) üsyanına son qoymaq və Türkiyəni Avropa müdafiə planlarına inteqrasiya etmək səylərinə görə müttəfiqlərdən daha çox dəstək gözləyir. "Əgər üzləşdiyimiz çətinlikləri həll etmək istəyiriksə, balanslı və ədalətli yük bölgüsünü təmin edərkən müdafiə ticarətinə qoyulan məhdudiyyətləri aradan qaldırmalıyıq", - deyə o əlavə edib. Prezident eyni zamanda Türkiyənin NATO-nun müdafiə xərcləri hədəflərinə töhfə verdiyini də açıqlayıb.

Qeyd edək ki, tədbirdə həmçinin NATO-nun rəqəmsal transformasiyası, müdafiə sahəsində süni intellektdən istifadə və kibertəhdidlərə qarşı mübarizənin gücləndirilməsi məsələləri də müzakirə olunacaq. "Türkiye" qəzetinin yaydığı məlumata görə, müzakirələr zamanı Çinin texnoloji inkişafına xüsusi diqqət yetiriləcək. Nəşr qeyd edir ki, alyans kritik kommunikasiya sistemlərinin qorunması, məlumat təhlükəsizliyinin gücləndirilməsi və strateji texnologiyaların idxaldan asılılığının azaldılması istiqamətində birgə layihələr hazırlayır.

Tədbirdə süni intellekt əsaslı müdafiə sistemlərinin inkişafı, kibertəhlükəsizlik, müdafiə sənayesində texnoloji əməkdaşlıq, eləcə də üzv ölkələrin rəqəmsal infrastrukturunun dayanıqlığının artırılması məsələlərinin müzakirə olunacağı gözlənilir. Gündəlikdə Avropanın müdafiə qabiliyyətinin gücləndirilməsi və müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri də yer alacaq. Bildirilir ki, tədbir çərçivəsində NATO ölkələri arasında silah istehsalı və tədarükü sahəsində əməkdaşlığın genişləndirilməsinə həsr olunmuş ayrıca müdafiə sənayesi forumu keçiriləcək.



### Kaya Kallas: Avropa Ordusu yaranmayacaq...

Ankara sammiti Avropa İttifaqı üçün də mühüm bir gözləntidir. Vurğulayaq ki. son aylarda Alyans daxilində baş verən proseslərin tənzimlənməsi üçün bu görüş bir fürsətdir. Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas sammit öncəsi Anadolu Xəbər Agentliyinə verdiyi müsahibədə bildirib ki, Alyans əhəmiyyətli çətinliklərlə xarakterizə olunan bir dövrdən keçir və bu dövrdə müttəfiqlər arasında birlik hər zamankından daha vacib hala gəlir. "Hər bir sammit tarixi adlanır, amma bu dəfə həqiqətən də belədir", - deyə Kallas bildirib. Siyasətçinin sözlərinə görə, NATO-nun gündəliyindəki əsas məsələlər müdafiə istehsalının artırılması, alyansın çəkindirmə mövqeyinin gücləndirilməsi və Ukraynaya dəstəyin genişləndirilməsidir. Kallas ayrıca bir Avropa ordusu yaratmaq ideyasını rədd edərək, Aİ üzvlərinin artıq milli ordularının olduğunu və bu orduların da öz növbəsində daha geniş NATO müdafiə strukturunun bir hissəsi olduğunu izah edib. "Hər bir Aİ üzv dövlətinin Avropa rəhbərliyinə hesabat verəcək başqa bir ordu yaratması mümkün deyil", - deyə o bildirib.

"Təhdidlər regional xarakter daşıyır, ona görə də cavab da regional olmalıdır", - deyə Kallas əlavə edib və müdafiə investisiyalarının artırılmasına və Avropa ölkələri arasında daha sıx koordinasiyaya çağırıb. Kallasın sözlərinə görə, Aİ və NATO səylərin təkrarlanmasının qarşısını almaq üçün sıx əlaqə saxlayır və Şimali Atlantika Alyansı daxilində "Avropa komponenti"nin gücləndirilməsinə diqqət yetirirlər. Kallasın sözlərinə görə, Alyans üzvləri birgə satınalma proqramları hazırlamalıdırlar, çünki bəzi resurslar ayrı-ayrı ölkələrin müstəqil şəkildə əldə etməsi üçün çox bahadır.

### Avropadan etiraf: Türkiyə kimi ölkələrlə əlaqələr getdikcə daha vacib hala gəlir

Kallas xatırladıb ki, Türkiyənin NATO-da ikinci ən böyük ordusu və son dərəcə güclü müdafiə sənayesi var. O, Türkiyənin Avropa təhlükəsizliyinin və regional sabitliyin təmin edilməsində "çox, çox vacib rol" oynadığını vurğulayıb. O, Qafqazdakı inkişaflara və ümumi təhlükəsizlik vəziyyətinə toxunaraq deyib: "Əlbəttə ki, Türkiyə ilə danışıqlar aparmalıyıq". Eyni zamanda, Kallas qeyd edib ki, Kipr məsələsi Ankara və Brüssel arasındakı münasibətlərdə vacib mövzu olaraq qalır. Bu baxımdan, diplomat BMT-nin Baş katibi Antonio Quterreşin tərəflər arasında dialoqun asanlaşdırılması səylərini dəstəklədiyini bildirib. "İnanıram ki, sülh yolu ilə həll bir çox məsələni həll edəcək", - deyə o bildirib.

Kaja Kallas qeyd edib ki, beynəlxalq vəziyyət getdikcə mürəkkəbləşir, tərəfdaşlar arasında daha sıx əməkdaşlıq tələb olunur və Türkiyə kimi ölkələrlə əlaqələr getdikcə daha vacib hala gəlir. Aİ-nin baş diplomatı sonda bildirib ki, regionda sabitliyin təmin edilməsi Aİ ilə Türkiyə arasında davamlı dialoqu son dərəcə vacib edən amillərdən biridir.

### Mark Rutte: Türkiyə Alyans üçün vacib ölkədir

NATO-nun Baş katibi Mark Rutte də sammit qabağı müttəfiqlərin müdafiə xərcləri ilə bağlı öhdəliklərini yerinə yetirməli və sənaye istehsalını artırmalı olduqlarını bildirib. Baş katib, Türkiyəni təxminən 3 min müdafiə şirkətinə malik olan əsas mərkəz adlandırıb. O, genişlənən müdafiə sənayesi bazasına və artan texnoloji imkanlarına istinad edərək əlavə edib ki, Türkiyə Alyans üçün vacib ölkədir. Alyansın rəhbəri sammit ərəfəsində verdiyi bəyanatda vurğulayıb ki, NATO-nun bu sammiti ABŞ-dan həddindən artıq asılı olduğumuz əvvəlki tədbirdən fərqlidir. O, Ankarada keçiriləcək NATO sammitinin "təminat və icra zirvəsi" olacağını qeyd edərək bildirib ki, hərbi xərclər, Ukraynaya dəstək və müdafiə sənayesi istehsalı Alyansın əsas prioritetləridir.

Rutte müttəfiqlərin ötən il Haaqa şəhərində keçirilən NATO zirvə toplantısında, xüsusən də müdafiə xərclərinin artırılması ilə bağlı öhdəliklərin yerinə yetirilməsinə diqqət yetirmələrinin gözlənildiyini bildirib. O, Avropa müttəfiqlərinin və Kanadanın müdafiə xərclərinin əhəmiyyətli dərəcədə artdığını və son iki ildə təxminən 250 milyard dollar əlavə vəsait ayrıldığını qeyd edib.

Rutte, həmçinin NATO-nun Ukraynaya dəstəyini davam etdirməli olduğunu və Alyansda müdafiə sənayesi istehsalının artırılmasının vacibliyini diqqətə çatdırıb: "Müdafiə sənayesi istehsalını həqiqətən artırmalıyıq, çünki bu, bizim çəkindirmə mexanizmimizin ayrılmaz hissəsidir. Təəssüf ki, istehsal müddətləri çox uzun olaraq qalır və irəliləyişlərə baxmayaraq, məhsuldarlıq kifayət qədər deyil".

Rutte hər üç prioritet üzrə irəliləyiş əldə edildiyini deyib, lakin sammit zamanı bunlardan birinin dominant məsələ kimi ortaya çıxa biləcəyini bildirib: "Ümumiyyətlə, işlər yaxşılaşır, amma düşünürəm ki, bu üç prioritetdən biri ən mühüm olacaq. Sammitin açılışı günündə NATO Müdafiə Sənayesi Forumunda bu məsələnin əsas diqqət mərkəzində olacağı gözlənilir".

**SADİQ**

# Danışıqlar Minskdə aparıla bilərmi?

## Kiyevin bu təklifi qəbul edəcəyi inandırıcı görünmür

Rusiya - Ukrayna müharibəsinin başa çatması ilə əlaqədar diplomatik danışıqlar dalana dirənib. Fevral ayından sonra sülh danışıqları aparılmır. Buna səbəb tərəflər arasında vasitəçilik edən ABŞ-ın İran probleminin həllinə diqqət ayırmasıdır. G7 sammitində Ukrayna mövzusunun əsas diqqət mərkəzində olması isə Vaşinqtonun bundan sonra sülh prosesinin bərpasına çalışa biləcəyi anlamına gəlir.

Yeri gəlmişkən, Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Rusiya Birləşmiş Ştatların Ukraynadakı münaqişənin sülh yolu ilə nizamlanmasına yardım göstərmək səylərini davam etdirmək niyyətini alqışlayır və bu cür təşəbbüslərə açıqdır. Onun sözlərinə görə, Vaşinqtonun Ukraynaya silah tədarükünü davam etdirməsi və Kiyevə müxtəlif növ yardım göstərməsi səbəbindən ABŞ-ı tam neytral tərəf hesab etmək mümkün olmasa da, Moskva ABŞ Prezidenti Donald Trampın və onun danışıqlar qrupunun münaqişənin sülh yolu ilə nizamlanmasına keçidə töhfə vermək istəyini yüksək qiymətləndirir. "Biz bunu alqışlayacağıq. Biz bu cür vasitəçilik xidmətlərinə, eləcə də sülh yolu ilə nizamlanma prosesinin özünə açığıq", - deyə Kremlin nümayəndəsi bildirib.

Fransa Prezidenti Emmanuel Makronun G7 sammitindən sonra Donald Trampın Ukrayna ilə bağlı mövqeyinin dəyişdiyinə dair bəyanatını şərh edən Peskov bildirib ki, o, Fransa liderini Vaşinqton adından danışa biləcək şəxs hesab etmir. "Düşünmürəm ki, Prezident Makron Vaşinqtonun vəkili və ya mətbuat katibi roluna namizəd ola bilər", - deyə o bildirib və əlavə edib ki, Moskva hələlik ABŞ tərəfindən bunu təsdiqləyən hər hansı bəyanat eşitməyib.

**Zelenski Putinlə görüşmək istəyir**

Peskov bundan əvvəlki açıqlamalarında sülh üçün Ukrayna Ordusunun Donbası tərk etməsini əsas şərt kimi elan etmişdi. Lakin Kiyev Moskvanın bu şərtini qəbulolunmaz hesab edir və Rusiya ordusunun Ukraynanın beynəlxalq hüquq çərçivəsində tanınan ərazilərindən çıxarılmasını vacib sayır. Rəsmi səviyyədə dəfələrlə Ukraynanın ərazi güzəştinə getməyəcəyi bəyan olunub. Ardınca isə Ukrayna Prezidenti Volodimir Zelenski rusiyalı həmkarı Vladimir Putinə görüş və danışıqlar müddətində atəşkəs təklifi ilə açıq məktub yazıb. Məktubda Zelenski bildirib ki, Ukrayna "hamının hamıya" formulu ilə əsir mübadiləsinə, mülki şəxslərin və uşaqların qaytarılmasına, eləcə də ABŞ və Avropanın təhlükəsizlik qarantları qismində mümkün iştirakı ilə birbaşa ikitərəfli formata hazırdır. O, görüşün neytral ərazidə keçirilməsini təklif edib və deyib ki, cəbhə xətti diplomatiyanın başlayacağı xətt olmalıdır: "Biz öz insanlarımızı itiririk və hər bir itkimiz bizim üçün ağırdır... Siz artıq müntəzəm olaraq, bir neçə aydan bir regionlarımızın, ilk növbədə də Donetsk vilayətinin əlá keçirilməsi üçün son müddətləri təxirə salırsınız. Onu bu il də ələ keçirə bilməyəcəksiniz. Lakin biz Ukraynada daimi müharibə istəmirik. Biz yaxşı bilirik ki, müharibəsiz daha yaxşıdır. Biz buna nail olmaq istəyirik. Mən əminəm ki, rusiyalıların əksəriyyəti buna müsbət cavab verməyə hazırdır və siz bunu bilirsiniz".

Zelenski qeyd edib ki, müharibə və sülh məsələlərinin həlli üçün ənənəvi olaraq liderləri qəbul edən ölkələr var: "İsveçrə, Türkiyə, ərəb ölkələri - bir çoxları bu görüşə ev sahibliyi edə bilər və etmək istəyir. Məhz liderlər əsas məsələləri həll edirlər - bu, həmişə belə olub və olacaq. Mən görüşün dəqiq tarixini müəyyən etməyi təklif edirəm".

**Kiyev sülh üçün yeni təkliflər verib**

Bununla yanaşı, Ukrayna həm əsas tərəfdaşlarına, həm də Rusiya Prezidentinin dostlarına görüşün mümkünlüyü və tammiqyaslı müharibənin sona çatması ilə bağlı təkliflər verib. Zelenskinin sözlərinə görə, "Ukrayna hər iki əsas tərəfdaşa təkliflər verib və Putinin dostları bizdən görüşün mümkün olduğunu və bu müharibənin sona çatmasının mümkün olduğunu eşidiblər. Rusiya sülhə doğru bu addımı atmalıdır". Prezident vurğulayıb ki, Ukrayna hərbiçiləri hər gün Ukrayna dəqiqliyinin gücünü sübut edirlər: "Bunlar Rusiyanın başlatdığı və Rusiyanın bitirməli olduğu bu müharibəyə görə Rusiyaya qarşı ədalətli cavablarımızdır. Rusiya bu müharibəni özü ilə birlikdə Ukraynadan aparmalıdır - bizə müharibə lazım deyil".



Qeyd edək ki, Ukrayna ordusu Rusiyanın neft-qaz komplekslərinə hücumlarını davam etdirir. Zelenski bəyan edib ki, uzaqmənzilli əməliyyatlarımız Rusiyanın müharibəni uzatmasına, Ukrayna şəhərlərinə və icmalarına hücumlarına qarşı ardıcıl və dəqiq cavabdır. O qeyd edib ki, Müdafiə Qüvvələrinin bölmələri Krasnodar diyarındakı Poltavskaya neft anbarına zərbə endirib. Hədəf cəbhə xəttindən təxminən 300 kilometr məsafədədir..

**Putin nikbin görünməyə çalışır**

Belə bir şəraitdə Rusiya Prezidenti Vladimir Putin jurnalist Pavel Zarubinə müsahibəsində Ukrayna ilə bağlı danışıqların davam etdiyini və bu istiqamətdə yeni təkliflərin olduğunu bildirib. Putin Rusiyanın enerji infrastrukturuna endirilən zərbələrin müəyyən çətinliklər yaratdığını, lakin bunun Moskvanın danışıqlardakı mövqeyinə təsir göstərməyəcəyini deyib. Rusiya Prezidenti, həmçinin Rusiya qoşunlarının Dobropolye yaşayış məntəqəsinə yaxınlaşdığını və bu yaşayış məntəqəsindən sonra Ukrayna qüvvələrinin əvvəlcədən hazırlanmış müdafiə xətlərinin olmadığını iddia edib. Onun sözlərinə görə, Rusiyanın məqsədləri arasında Donbas və "Novorossiya" üzərində tam nəzarətin təmin edilməsi də var. Putin Rusiya qoşunlarının Sumı şəhərinə təxminən 10 kilometr, Slavyanska isə 8-9 kilometr məsafədə olduğunu, hücum əməliyyatlarının 15 istiqamətdə davam etdiyini bildirib.

O, Konstantinovkanın 96 faizinin Rusiya qüvvələrinin nəzarətində olduğunu iddia edib. Putin, həmçinin Krasnı Limanda təxminən 11 min evdən yalnız 149-nun Ukrayna qüvvələrinin nəzarətində qaldığını deyib. Bundan əlavə, Starıy Oskol yaxınlığında Ukrayna qüvvələrinin tam mühasirəyə alınmasına təxminən 2 kilometr qaldığını və Ukrayna Silahlı Qüvvələrinin yeni ərazilər tutmadığını deyib. Putin əlavə edib ki, enerji sahəsində yaranan çatışmazlığın aradan qaldırılması məqsədilə enerji idxalı genişləndiriləcək.

**Görüş yeri İstanbul da ola bilər**

Vladimir Putin Rusiya-Ukrayna danışıqlarının mümkün nəticə verəcəyi halda, Minsk şəhərinin danışıqlar üçün məkan ola biləcəyini də bildirib. Dövlət başçısı qeyd edib ki, Belarus bu prosesdə vasitəçi və danışıqlar məkanı kimi istifadə oluna bilər: "Mən əminəm ki, danışıqlar nə vaxtsa nəticə verərsə, Belarusun imkanlarından da istifadə etmək olar". O, həmçinin Belarus Prezidenti Aleksandr Lukaşenkonun mübahisəli məsələlərin sülh yolu ilə həllinə yönəlmiş təşəbbüsləri dəstəklədiyini vurğulayıb. Putin xatırladıb ki, 2014-cü il Minsk razılaşmaları da daxil olmaqla, Rusiya-Ukrayna danışıqları əvvəllər də bu şəhərdə aparılıb.

Lakin Kiyevin Moskva ilə danışıqların Minskdə aparılmasına razılıq verəcəyi inandırıcı görünmür. Çünki Belarus Rusiyanın ən yaxın müttəfiqi hesab olunub. Üstəlik, Kiyev dəfələrlə Belarusu Rusiya ordusuna müəyyən texniki və s. dəstək verməkdə ittiham edib.

Bütün bunların fonunda Türkiyə danışıqların ən optimal məkanı hesab olunur. Ukrayna bu variantı birmənalı olaraq qəbul edir. Rusiya da prosesin İstanbulda aparılmasını inkiar etmir. Hətta V.Putin bu yaxınlarda hökumət üzvləri ilə keçirdiyi müşavirədə bildirib ki, Rusiya Ukrayna ilə sülh danışıqlarını İstanbul razılaşmaları əsasında və mövcud vəziyyət nəzərə alınmaqla aparmağa hazırdır: "Rusiya, artıq dəfələrlə deyildiyi kimi, Ukrayna ilə sülh danışıqlarına hazırdır. Biz hələ İstanbulda əldə olunmuş və o vaxt Ukrayna nümayəndə heyəti tərəfindən paraflanmış razılaşmalar əsasında danışıqlar aparmağa hazırıq. Həmin razılaşmalar onları qane edirdi", - deyə Rusiya lideri bildirib. O vurğulayıb ki, Moskva əvvəllər əldə edilmiş razılaşmalardan geri çəkilmək üçün heç bir əsas görmür.

**N.BAYRAMLI**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Qanunun keşiyində keçən 108 il!

## 2 İyul Azərbaycan Polisi Günüdür...




İyulun 2-si Azərbaycanda Polis Günü kimi qeyd edilir. Ölkəmizdə ictimai asayişin qorunmasında, vətəndaşların təhlükəsizliyinin təmin olunmasında Azərbaycan polisinin öz xidməti borcunu böyük əzmlə və layiqincə yerinə yetirməsi müstəsna əhəmiyyətə malikdir. Azərbaycan polisi cəmiyyətin, dövlətin və bütövlükdə Vətənin keşiyində durub, öz vəzifə borcunu yüksək səviyyədə yerinə yetirir. Bu çətin, eyni zamanda şərəfli peşə sahibləri Vətənə və xalqa sədaqətini öz peşə fəaliyyətində daim nümayiş etdirir, dövlətin təhlükəsizliyinin və vətəndaşların asayişinin keşiyində qətiyyətlə dayanırlar. Zərurət yarandıqda müqəddəs vəzifə borcunu yerinə yetirərkən canlarından keçərək şəhidlik zirvəsinə ucalmaqdan çəkinmirlər.

Polislərimiz cinayətkarlığın səviyyəsinin azalması, qanunları pozan şəxslərin və ya dəstələrin zərərsizləşdirilməsi, transmilli mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili və bu kimi çətin vəzifələri yerinə yetirirlər. Bu gün ümumxalq əhəmiyyətli məsələlərdə daim öndə olan Azərbaycan polisinin 108 yaşı tamam olur. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökumətinin qərarı ilə əsası qoyulan milli polis ötən dövr ərzində çətin və şərəfli yol keçib. 1920-ci il aprelin 27-də Cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu 70 il ərzində daxili işlər orqanları uğurla inkişaf edib, cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və asayişin qorunmasında böyük təcrübə, yüksək bilik əldə edib. Xüsusilə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamızın bir çox sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illər daxili işlər orqanlarının tarixinə ən mühüm mərhələ kimi həkk olunub. SSRİ dövründə Azərbaycanın Daxili İşlər Nazirliyi və ona bağlı orqanlar yüksək peşəkarlığı ilə fərqlənib.

Bu presedent Ulu öndərin müstəqil respublikamıza rəhbərlik etdiyi dövrdə də ön planda dayanıb. Məhz Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-si Azərbaycan Polisi Günü elan olunub. Ötən dövr ərzində daxili işlər orqanlarının işinin təkmilləşdirilməsi və müasir standartlar səviyyəsində yüksəldilməsi, təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, peşəkar milli kadrlarla komplektləşdirilməsi ilə bağlı önəmli fərman və sərəncamlar imzalanıb. Bu da Azərbaycanın daxili işlər orqanlarının müstəqillik dövründə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasındakı misilsiz xidmətləri ilə yanaşı, ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizədə də özünü göstərib.

Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının diqqət və qayğısı sayəsində davam edən bu inkişaf və modernləşmə vətəndaşlarımızın hüquq və mənafelərini etibarlı müdafiə etməyə tam imkan verir. Prezident İlham Əliyevin diqqəti sayəsində davamlı inkişafda olan daxili işlər orqanları ölkədə cinayətkarlığa, onun transmilli növlərinə qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmin olunmasında önəmli xidmətləri ilə seçilir. Azərbaycan polisi vətəndaşların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi sahəsində üzərinə düşən funksiyaları peşəkarlıqla yerinə yetirir və hər zaman vəzifə borcuna sadiq qalaraq ona bəslənən inam və etimadı doğruldur.

Qeyd edildiyi kimi, Azərbaycan polisi Vətənin azadlığı və bütövlüyü uğrunda gedən mübarizədə də hər zaman ön sıralarda olub. Birinci Qarabağ müharibəsindəki döyüşlərdə 1700-ə yaxın polis əməkdaşı və hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb, 1710 nəfər isə yaralanıb. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına, 1143 nəfər orden və medallara layiq görülüb.

DİN əməkdaşları öz şücaət və qəhrəmanlıqlarını İkinci Qarabağ müharibəsində də göstəriblər. Belə ki, Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb. Doğma yurdumuzun işğaldan azad olunması uğrunda qəhrəmancasına döyüşmüş Daxili Qoşunların əməkdaşlarından 1690 nəfər Prezidentin imzaladığı sərəncamlarla müxtəlif orden və medallara, o cümlədən 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Azərbaycan polisinin 108 illik şərəfli tarixi göstərir ki, Vətənə sonsuz sədaqət, xalqa səmimi xidmət, qanunun aliliyinə hörmət və dövlətçiliyə sarsılmaz bağlılıq bu müqəddəs peşənin əsas dayaqlarıdır. Məhz bu ali dəyərlər sayəsində polisimiz bundan sonra da ölkəmizin təhlükəsizliyinin etibarlı təminatçısı, xalqımızın güvən yeri və dövlətimizin qüdrətli dayaqlarından biri olaraq fəaliyyətini uğurla davam etdirəcək.

***Yeganə BAYRAMOVA***

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı partiyanın Veteranlar Şurasının üzvü

**NURLANA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

## Osman Sarıvəllinin vəfatından 36 il ötür...



# Misraları ilə yaşayan şair

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Osman Sarıvəlli yaradıcılığı ilə milli poeziyamızda özünəməxsus iz qoymuş şairlərdəndir. O, 20-ci əsr Azərbaycan poeziyasının tanınmış simalarından biri kimi şeirlərində Vətən sevgisini, insanın mənəvi aləmini, zəhməti, dostluğu və həyat eşqini böyük sənətkarlıqla tərənnüm edib. Şairin poetik dili sadəliyi, səmimiyyəti və dərin lirizmi ilə seçilir. O.Sarıvəlli oxucunu düşündürən, həyata nikbin baxış aşılayan əsərləri ilə müxtəlif nəsillərin rəğbətini qazanıb.

Şair 1905-ci il dekabrın 17-də Qazax rayonunun İkinci Şıxlı (Sarıvəlli) kəndində anadan olub. Orta təhsilini Qazax Müəllimlər Seminariyasında aldıqdan sonra bir müddət Göyçay rayonunun Qaraməryəm və Bığır kənd məktəblərində müəllim işləyib. Təhsilini artırmaq məqsədilə Moskvaya gedib və burada Dövlət Universitetinin filologiya fakültəsində oxuyub. 1937-ci ildə Azərbaycan Yazıçılar İttifaqına üzv olub. Bakı Pedaqoji Texnikumunda müəllim (1932-1935), Bakı Teatr Texnikumunda müdir (1939-1940), Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda müdir müavini, “Ədəbiyyat qəzeti”nin redaktoru, Uşaqgəncnəşrdə redaktor və Azərbaycan Yazıçılar İttifaqında şeir üzrə məsləhətçi vəzifələrində çalışıb.




Ədəbi fəaliyyətə gənc yaşlarından başlayan Osman Sarıvəlli uzun illər Azərbaycan poeziyasının inkişafında fəal iştirak edib. O, yalnız lirik şair kimi deyil, həm də tərcüməçi və publisist kimi məhsuldar yaradıcılıq yolu keçib. Müxtəlif xalqların ədəbi nümunələrini Azərbaycan dilinə çevirərək milli ədəbiyyatımızın zənginləşməsinə mühüm töhfə verib. Nizami, Xəqani, Viktor Hüqo, Nazim Hikmət, Aleksandr Puşkinin əsərlərini, Sofoklun “Antiqona” faciəsini dilimizə çevirib. Folklorumuzun və aşıq yaradıcılığının tədqiqində, eləcə də böyük Səməd Vurğun yaradıcılığının külliyyatının hazırlanıb çap edilməsində öz qüvvəsini əsirgəməyib. Onun qoşmaları bu gün də Azərbaycan aşıqlarının ən çox sevdiyi, oxuduğu mahnılara çevrilib.

Onun “Dəmir sətirlərim”, “Bənövşə”, “Şairin hədiyyəsi”, “Gətir, oğlum, gətir”, “Bahar çiçəkləri”, “İqlimdən iqlimə” kimi kitabları Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Şairin fəaliyyəti yüksək qiymətləndirilmiş və müxtəlif ali orden və mükafatlara layiq görülüb.

O, “Qırmızı Əmək Bayrağı” ordeni (1959), “Şərəf Nişanı” ordeni (1963), “Xalqlar Dostluğu” ordeni (1975) , “Oktyabr İnqilabı” ordeni (1985) kimi təltiflərlə mükafatlandırılıb.

Şairin yaradıcılığında insan amili əsas yer tutur. Onun əsərlərində sadə insanların duyğuları, zəhmətkeş həyat tərzi, doğma yurda bağlılıq və yüksək mənəvi dəyərlər poetik ifadəsini tapır. Məhz bu xüsusiyyətlər Osman Sarıvəlli poeziyasını zamanın sınağından çıxaran əsas amillərdəndir.

1990-cı ilin iyulun 2-də vəfat edən Osman Sarıvəlli doğulduğu kənddə dəfn edilib.

Bu gün Osman Sarıvəllinin xatirəsi dərin ehtiramla yad edilir. Onun qələmə aldığı misralar Azərbaycan oxucusunun mənəvi dünyasında yaşayır, milli poeziyamızın qiymətli nümunələri sırasında öz layiqli yerini qoruyub saxlayır. Sözün qüdrətinə inanan, yaradıcılığı ilə milli-mənəvi dəyərlərimizi yaşadan Osman Sarıvəlli daim Azərbaycan ədəbiyyatının unudulmaz sənətkarlarından biri kimi xatırlanacaq.

***Yeganə BAYRAMOVA***

***İdman***

## Azərbaycan idmançılarının yeni reytinq cədvəli açıqlanıb



Gənclər və İdman Nazirliyi (GİN) olimpiya idman növləri üzrə milli komandaların idmançılarının iyulun 1-nə olan reytinq cədvəlini açıqlayıb.

GİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, siyahıya 480 xalla yunan-Roma güləşçisi Həsrət Cəfərov başçılıq edir. Sərbəst güləşçi Giorgi Meşvildişvili (460 xal) ikinci, cüdoçu Arseni Cioyev (420 xal) üçüncü pillədə qərarlaşıb.

Reytinq cədvəlində, həmçinin Səidcəmşid Cəfərov (boks, 400 xal), Murad Əhmədiyev (yunan-Roma güləşi, 330 xal), Ülvü Qənizadə (yunan-Roma güləşi, 300 xal), Nürəddin Novruzov (sərbəst güləş, 270 xal), Qaşim Maqomedov (taekvondo, 270 xal), Hidayət Heydərov (cüdo, 270 xal) və İslam Bazarqanov (sərbəst güləş, 265 xal) da yer alıblar.

## Parataekvondoçularımız beynəlxalq təlim-məşq toplanışına qatılıb




Azərbaycanın üç parataekvondoçusu Cənubi Koreyada keçiriləcək beynəlxalq təlim-məşq toplanışına dəvət alıb.

Milli Paralimpiya Komitəsindən AZƏRTAC-a bildirilib ki, Dünya Taekvondo Federasiyası, Taekvondo Təbliğat Fondu və “Taekwondowon” İdman Kompleksinin birgə təşkilatçılığı ilə iyulun 1-7-də Muju şəhərində təşkil olunacaq hazırlıq prosesində Sabir Zeynalov (58 kiloqram), Amin Əliyev (63 kiloqram) və Səmayə Həsənova (47 kiloqram) iştirak edir.

Təlim-məşq toplanışına dünyanın 10-dan çox ölkəsindən ümumilikdə 40 parataekvondoçu səyahət dəvətlə qatılacaq.

## “Altınordu” ölkə çempionatında iştirakdan imtina edib

Türkiyənin “Altınordu” klubu maliyyə problemi səbəbindən 2026/2027-ci illər mövsümündə II Liqada iştirak etməyəcəyini açıqlayıb.




AZƏRTAC xəbər verir ki, bu barədə klubun yaydığı bəyanatda bildirilib.

İzmir təmsilçisi 2012-ci ildən etibarən “Altınordu” adını layiqincə təmsil etməyə çalışdıqlarını və bu müddətdə gənc futbolçuların yetişdirilməsi istiqamətində mühüm işlər gördüklərini vurğulayıb. Bəyanatda aşağı yaş qruplarının fəaliyyətini davam etdirəcəyi bildirilib.

Qeyd edək ki, “Altınordu” Çağlar Söyüncü və Cengiz Ünder kimi tanınmış ailəni Türkiyə futboluna qazandırıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4108**
**Sifariş: 845**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova